

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Regionda ilk dəfə COP29



8


№ 196 (7121)

SƏS

24 oktyabr 2024-cü il.
Qiyməti 60 qəpik


# Azərbaycan - etibarlı və mühüm tərəfdaş!


2

**Azərbaycan Prezidenti İlham Əliyev Kazanda bir sıra mühüm görüşlər keçirib**

# YENİ, MÜSTƏQİL AZƏRBAYCAN UĞRUNDA!

## Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı


4

### Gürcüstan çətin sınaqdan necə çıxacaq?


9

### Hüseyn Cavidin fəlsəfi dünyası



12

### Qərbin Kazanda iflası



10

### Avropa İttifaqına üzvlük fonunda RİSKLİ OYUNLAR


7

### Vegetativ həyat, yoxsa orqan bazarı?



14

# Azərbaycan - etibarlı və mühüm tərəfdaş!

## Azərbaycan Prezidenti İlham Əliyev Kazanda bir sıra mühüm görüşlər keçirib

***Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə XVI BRICS Sammitinin "Outreach" / "BRICS+" formatında iştirak etmək üçün oktyabrın 23-də Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərinə səfərə gəlib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının təyyarəsini Kazan Beynəlxalq Hava Limanına enərkən hərbi helikopterlər müşayiət edib. Prezident İlham Əliyevi Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov qarşılayıb. Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyev bir sıra mühüm görüşlər keçirib. Oktyabrın 23-də Prezident İlham Əliyevin Kazanda Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov ilə görüşü olub.***

Rüstəm Minnixanov:

-İlham Heydər oğlu, fürsətdən istifadə edərək Rusiya-Azərbaycan münasibətləri çərçivəsində respublikamıza göstərdiyiniz diqqətə görə Sizə təşəkkür etmək istərdim. Biz bunu çox yüksək qiymətləndiririk və əlbəttə ki, bizim Prezidentin belə bir dövlət səfərini həyata keçirdiyinə görə fəxr edirik. Həmin səfəri çox yaxşı işıqlandırdılar. Bu yaxınlarda Siz bizim rəhbəri təbrik etdiniz, çoxlu işgüzar məsələ var idi. BRICS-i bizə etibar ediblər. Vaxt tapıb gəlməyiniz və iştirak etməyiniz bizim üçün böyük şərəfdir. İcazə versəniz, həmkarlarımızla gördüyümüz işlərlə bağlı bəzi məsələləri məruzə etmək istərdim.

Prezident İlham Əliyev:









-Rüstəm Nurqaliyeviç, sağ olun. Bir daha qardaş torpaqda olmağıma şadam. İlk növbədə, Sizi və Tatarıstan Respublikasının bütün sakinlərini bu əlamətdar hadisə - BRICS sammitinin, həmçinin "BRICS+"un keçirilməsi münasibətilə təbrik etmək istərdim. Bu, Rusiya Federasiyası rəhbərliyinin respublikaya, şəxsən Sizə, Tatarıstan vətəndaşlarına xüsusi münasibətinin təzahürüdür, həmçinin Tatarıstanın Sizin rəhbərliyinizlə nail olduğu potensialın göstəricisidir. Çünki belə bir irimiqyaslı sammitin keçirilməsi, əlbəttə ki, tədbirlərin, dövlət başçılarının ikitərəfli görüşlərinin təşkili üçün resursların, infrastrukturun, o cümlədən mehmanxana şəbəkəsinin olmasını tələb edir. Ona görə də əvvəlcədən səmimi təbriklərimi çatdırıram. Əminəm ki, hər şey ən yüksək səviyyədə keçəcək.

Əlbəttə, Tatarıstan ilə Azərbaycan arasında münasibətlər Rusiya Federasiyasının və Azərbaycanın dövlətlərarası münasibətlərinin mühüm tərkib hissəsidir. Siz də qeyd etdiyiniz kimi, Rusiya Federasiyasının Prezidenti bu ilin avqustunda Azərbaycana dövlət səfəri etdi. Bundan sonra da biz görüşmüşük. Beləliklə, ikitərəfli münasibətlərin dinamikası, o cümlədən Tatarıstan-Azərbaycan ikitərəfli formatı çox yaxşıdır. Bu gün onları müzakirə edəcəyik. Bizim yoldaşlarımız da görüşümüzə hazırlıqlı gəliblər. Zənnimcə, yaxın vaxtlarda yaxşı nəticələrin şahidi olacağıq. Fürsətdən istifadə edərək, bir daha təbriklərimi çatdırmaq və Sizin üçün münasib bir vaxtda Sizi Azərbaycana səfərə dəvət etmək istəyirəm.

Rəis Rüstəm Minnixanov: Sağ olun. Biz həm işgüzar, həm də turistik baxımdan imkan taparaq dünya səviyyəli kompleksləri qiymətləndirdik və onlara heyran olduq. Mən hələ Bakını demirəm. Bakı bizim üçün işləri necə təşkil etmək, təcrübə toplamaq baxımından özlüyündə bir örnəkdir. Bizim artıq ziyarət etdiyimiz turistik dağ-xizək mərkəzi isə, əlbəttə, hamımızı valeh etdi. Bunun üçün Sizə çox sağ olun deyirik.

Prezident İlham Əliyev: Gələ bilərsiniz. Elə mövsüm də yenicə başlayır, gəlin. Yeri gəlmişkən, artıq ilk qar yağıb.

Rəis Rüstəm Minnixanov: Biz Sizin pərəstişkarınızıq.

Prezident İlham Əliyev: Sağ olun. Belə bir sürpriz haqqında təyyarədə öyrəndim. Sağ olun.

Azərbaycan Prezidentinin Tatarıstanın ali dövlət mükafatı ilə təltif olunması haqqında Fərman oxundu: "Tatarıstan Respublikası Rəisinin Fərmanı ilə Tatarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişafına, xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə töhfəsinə görə Prezident İlham Əliyev "Dostluq" ordeni ilə təltif olunur".

Rəis Rüstəm Minnixanov: Bu, "Sollers" şirkətidir.

Prezident İlham Əliyev: Bilirik.

Rəis Rüstəm Minnixanov: Həmin avtomobillərdən ən yaxşı yerlərdə istifadə etmək üçün xahiş etmişdik.



Prezident İlham Əliyev: Çox sağ olun, Rüstəm Nurqaliyeviç. Belə yüksək mükafata görə təşəkkür edirəm. Bu, mənim üçün həqiqətən də böyük sürprizdir. Bu barədə təyyarə Kazana enəndə öyrəndim. Tatarıstan Respublikasının yüksək ordeni ilə təltif olunmaq böyük şərəfdir. Bütün Azərbaycan xalqı adından, şəxsən öz adımdan bir daha Sizə təşəkkür edirəm. Elə təyyarədə Sizin Azərbaycana və Bakıya sonuncu səfərinizi xatırlayırdım. Siz həm Cəbrayıldа, həm də Zəngilanda tatar icması ilə birlikdə Sabantuy bayramında iştirak edirdiniz. Hədiyyəyə görə də sağ olun. Biz onu elə Sizin olduğunuz həmin bölgələrə - Zəngilana, Cəbrayıla göndərəcəyik, orada onlara çox ehtiyac var. Bu mükafata görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Oktyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin Kazanda Rusiya Federasiyasının "Sberbank" Publik Səhmdar Cəmiyyətinin prezidenti, İdarə Heyətinin sədri German Qref ilə görüşü olub. German Qref rəhbərlik etdiyi bankın həyata keçirdiyi işlər, o cümlədən bankın maliyyə sektoru ilə yanaşı, rəqəmsallaşma həlləri vasitəsilə səhiyyə, sosial, təhsil və digər sahələrlə bağlı fəaliyyəti barədə dövlətimizin başçısına ətraflı məlumat verdi.

*Ardı Səh. 3*

# Azərbaycan - etibarlı və mühüm tərəfdaş!

## Azərbaycan Prezidenti İlham Əliyev Kazanda bir sıra mühüm görüşlər keçirib

Əvvəli səh. 2

O, Azərbaycanın sürətli iqtisadi yüksəlişini və sosial inkişaf meyillərini xüsusi qeyd etdi. Görüşdə əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Dünən Prezident İlham Əliyevin Kazanda Bosniya və Herseqovinanın Serbska Respublikasının Prezidenti Milorad Dodik ilə görüşü olub. Milorad Dodik Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi. Milorad Dodik Azərbaycanın göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. O, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması münasibətilə təbriklərini çatdırdı.

”Siz suveren Azərbaycanın güclü Liderisiniz. Güclü Lider olmadan güclü dövlət də ola bilməz”, - deyən Milorad Dodik Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurla inkişaf etməsini məmnunluqla qeyd etdi. O, investisiyalar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu deyərək, Azərbaycanın yol infrastruktur şirkətlərinin Balkan regionunda uğurlu layihələr həyata keçirdiyini qeyd etdi və Bosniya və Herseqovinanın da bunda maraqlı olduğunu vurğuladı.





Prezident İlham Əliyev həm işğal, həm də işğaldan sonrakı dövrlərdə Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Bosniya və Herseqovinaya səfərini məmnunluqla xatırladı. Prezident İlham Əliyev enerji, nəqliyyat infrastrukturu və investisiyalar sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyevin oktyabrın 23-də Kazanda Laos Xalq Demokratik Respublikasının Prezidenti Thonqlun Sisulit ilə görüşü olub. Laos Prezidenti ölkəsi ilə Azərbaycan arasında yaxşı əlaqələrin olduğunu vurğulayaraq iqtisadiyyat, ticarət, investisiya, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığımızın inkişafı üçün əlverişli perspektivlərin mövcudluğunu qeyd etdi.

Thonqlun Sisulit hələ 1981-ci ildə Bakıda olduğunu məmnunluqla xatırlayaraq, ötən dövr ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini vurğuladı. O, sovetlər dövründə çox sayda laoslu mütəxəssisin Azərbaycanda təhsil almasına görə təşəkkürünü bildirərək, bu gün də həmin şəxslərin Laosda nazir, nazir müavini və digər rəhbər vəzifələrdə fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini dedi. Thonqlun Sisulit dövlətimizin başçısını Laosa səfərə dəvət etdi.

Xoş sözlərə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti dəvətə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadiyyat, ticarət, enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün müvafiq işçi qrupunun yaradılması və mütəxəssislərdən ibarət hökumət nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasını qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın təhsil sahəsində Laosa bundan sonra da dəstək göstərməsi imkanlarına toxundu. Görüşdə gələn il Azərbaycan ilə Laos arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulandı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı qeyd edildi.

Dünən həmçinin Prezident İlham Əliyevin Kazanda BRICS-ə üzv dövlətlər tərəfindən təsis olunmuş Yeni İnkişaf Bankının prezidenti Dilma Russeff ilə görüşü olub. Dilma Russeff Azərbaycanda COP29-un keçirilməsini xüsusi qeyd edərək, bu tədbirdə iştirak edəcəyini məmnunluqla vurğuladı. O, iqlim maliyyələşməsi mövzularının beynəlxalq maliyyə institutlarının diqqət mərkəzində olduğunu dedi və bu nöqteyi-nəzərdən Bakıda keçiriləcək COP29-un önəminə toxundu. Söhbət zamanı qarşılıqlı maraq doğuran əməkdaşlıq imkanları müzakirə edildi.

# Prezident İlham Əliyev terror aktı ilə əlaqədar Türkiyə Prezidentinə başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ankarada törədilmiş terror aktı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı verib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı başsağlığı məktubunda bildirib: ”Türk Aviasiya və Kosmik Sənaye Şirkətində (TUSAŞ) törədilmiş terror aktı nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca sarsıtdı.

Biz bu xain terror aktını şiddətlə qınayır, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm”.

# Nazirlər Kabinetində intensiv yağıntının törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı iclas keçirilib

Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə son günlər Bakıda və Abşeron yarımadasında normadan artıq yağıntı ilə müşahidə olunan qeyri-sabit hava şəraiti, intensiv yağıntının törətdiyi fəsadların araşdırılması və nəticələrinin aradan qaldırılması, gələcəkdə belə halların baş verməsinin qarşısının alınması ilə bağlı məsələlərə həsr olunmuş iclas keçirilib. İclasda aidiyyəti qurumların rəhbərləri iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov yağıntıların normadan artıq olması kimi obyektiv səbəblə yanaşı, subyektiv səbəblərin də mövcudluğunu vurğuladı, müvafiq infrastrukturun tam gücü ilə işləməməsinin bir sıra ciddi fəsadlar və itkilərlə nəticələndiyini bildirdi. Hazırda ziyan dəymiş infrastrukturun fəaliyyətinin bərpası üçün zəruri tədbirlərin görüldüyü, vəziyyətin araşdırıldığı və nəticələrin aradan qaldırılmasından sonra yekun qərarların qəbul ediləcəyi diqqətə çatdırıldı.



Fövqəladə hallar naziri Kəmaləddin Heydərov, daxili işlər naziri Vilayət Eyvazov, Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov, Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, ”Azərişıq” ASC-nin sədri Vüqar Əhmədov və başqaları yağıntının fəsadları, onların ilkin məlum olan səbəbləri və aradan qaldırılması ilə bağlı məruzələrlə çıxış etdilər.

İclasda ən təxirəsalınmaz texniki məsələlərin həlli, bütövlükdə Bakı şəhərinin infrastrukturuna dair məsələlər müzakirə edildi, müvafiq tapşırıqlar verildi.

Baş nazir hava şəraitinin törətdiyi fəsadların nəticələrinin aradan qaldırılmasının sürətləndirilməsinə, səbəblərinin tam araşdırılaraq təhlil edilməsinə, gələcəkdə bu cür hadisələr zamanı mümkün fəsadların qarşısının alınması üçün qısamüddətli və uzunmüddətli tədbirlərin görülməsinə, müvafiq infrastrukturun tam hazır vəziyyətə gətirilməsi üçün təxirəsalınmaz addımların atılmasına dair tapşırıqlar verdi.

Həyata keçiriləcək bütün tədbirlərin keyfiyyətlə və qısa zamanda başa çatdırılmasına aidiyyəti qurumların ciddi məsuliyyət daşıdığı diqqətə çatdırıldı.

# YENİ, MÜSTƏQİL AZƏRBAYCAN UĞRUNDA!

## *Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavabı*

### *HÖRMƏTLİ ZİYALILAR!*

16 oktyabr 1992-ci il tarixli "Səs" qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdr.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi tarixi hadisədir və şübhəsiz ki, bütün azərbaycanlıları, bütün Azərbaycan vətəndaşlarını hədsiz dərəcədə sevindirir. Eyni zamanda, bu əlamətdar hadisə müstəqil Azərbaycan dövləti, Azərbaycan xalqı qarşısında çox məsul, mürəkkəb, çətin vəzifələr qoyur. İndi əsas vəzifə dövlətçiliyin, müstəqilliyin bərqərar olunmasını, milli-demokratik dövlətin formalaşmasını, müstəqil Azərbaycanın suverenliyini, təhlükəsizliyini təmin etmək və vətəndaşlara azad, xoşbəxt, firavan həyat şəraiti yaratmaqdan ibarətdir. Bu xeyirxah və şərəfli işə hər bir vətənpərvər öz layiqli töhfəsini verməlidir.

Bununla bağlı və Sizin müraciətinizə cavab olaraq bəzi fikirlərimi və arzularımı açıqlamaq istəyirəm. Hər şeydən öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi əldə etməsi təxminən səksəninci illərin əvvəllərindən başlamış, keçmiş Sovetlər İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsidir. Bu tarixi obyektiv proseslər Sovet İttifaqının dağılmasına, Kommunist Partiyasının tarixin səhnəsindən çıxmasına və 15 müttəfiq respublikanın hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxarmışdır. Bundan sonrakı hadisələr - yeni müstəqil dövlətlərin, o cümlədən, Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması təbii bir haldır və beynəlxalq, dövlətlərarası hüquq normalarının qanunauyğun təzahürüdür. Buna görə də Azərbaycanın müstəqillik əldə etməsini heç bir vəchlə müəyyən ictimai-siyasi qüvvələrin, təşkilatların, ayrı-ayrı şəxslərin, o cümlədən də, Xalq Cəbhəsinin xidməti saymaq olmaz. Təkrar edirəm, bu, tarixi obyektiv proseslərin nəticəsidir, taleyin və zamanın Azərbaycan xalqına, eləcə də, keçmiş müttəfiq respublikaların xalqlarına əvəzsiz töhfəsidir. Beləliklə, Azərbaycanın dövlət müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvətidir və heç cür yol verməк olmaz ki, bu, ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin müstəsna səlahiyyətinə, monopoliyasına çevrilsin. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması bütün ictimai-siyasi, sosial-iqtisadi potensialından maksimum istifadə olunmasını tələb edir. Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur.

Güman edirəm ki, bu yolda əsas vəzifələr aşağıdakılardan ibarətdir:

**Birinci.** Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşdur. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqınlar var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyib. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.



**İkinci.** Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycan iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur. Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın istisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.



**Üçüncü.** Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq, fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz Vətənlərində, müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər. Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

**Dördüncü.** Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir. Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də respublikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

**Beşinci.** Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivilizasiya və demokratik yollarla həll edilməlidir. Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir.

Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram.

***Dərin hörmətlə, HEYDƏR ƏLİYEV***
***24 oktyabr 1992-ci il. Naxçıvan şəhəri***
***"SƏS" qəzeti, 6 noyabr 1992-ci il, № 46 (75)***

*Tarixin elə bir dövrü olmayıb ki, o zaman Azərbaycan xalqı çətinliklərlə, ağır, üzücü problemlərlə, işğal və qəsblərlə üzləşməsin. Lakin ən ağır, acı dövrdə belə xalq sabaha olan ümidini, qələbəyə olan inamını itirməyib. Belə də olub, xalqın əzm və qətiyyəti nəhayət arzuların və istəklərin reallaşması ilə nəticələnib.1991-ci ilin oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini əldə etsə də, de-fakto bu istəyini reallaşdıra bilməmişdir. Çünki hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün səriştəsizliyi, bacarıqsızlığı səbəbindən dövlət müstəqilliyimiz təhlükə ilə üz-üzə qalmışdır. Vəziyyətin ağırlığı, hakimiyyət uğrunda mübarizə, siyasi çəkişmələr nəticə etibarilə torpaqlarımızın itirilməsi ilə nəticələnirdi. Gərgin durum o həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşmişdir. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılması mütləq tarixi zərurətə çevrilmişdi. Belə çətin, ağır dönəmdə xalq ümidini dahi oğlu, Ulu Öndər Heydər Əliyevə bağladı.*

# Əməli fəaliyyəti ilə zəfərlər yazan LİDER

## Ulu Öndər Heydər Əliyevin ziyalılara cavab məktubunun "Səs" qəzetində dərc olunması ən ağır gündə "Səs"in xalqın yanında olduğunu göstərir

### ”Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz”

1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı o dövrün ən aparıcı, mübariz qəzeti olan ”Səs” qəzeti vasitəsi ilə Ulu Öndərimiz Heydər Əliyevə müraciət ünvanladı. Ziyalıların müraciətində deyilirdi: ”Möhtərəm HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü, aparıcı qüvvəyə malik bir partiya kimi görürük. İnanırıq ki, Azərbaycanımızın bugünü, sabahı naminə başqa partiya, qurum və cəmiyyətlərin vətənpərvər üzvləri də həlledici anda məhz bu partiyanın mövqeyində dayanacaqlar. Yeni qüvvələrin öncülü, aparıcısı Sizin kimi şəxsiyyət olarsa, tezliklə müstəqil respublikamızın inkişaf istiqamətləri həm müəyyənləşdiriləər, həm də uğurlu addımlar atılar”.







АЗӘРБАЈЧАН СИЗИН СӨЗҮНҮЗҮ КӨЗЛӘЈИР

### Ulu Öndərin ziyalılara cavab məktubunda: ”Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir”

Hər zaman xalqının yanında olan, gecəgündüz xalqı üçün çalışan Ümummilli Liderimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi və Yeni Azərbaycan Partiyasının yaradılmasına və onun Sədri olmağa razılıq verdi. Ulu Öndərimiz Heydər Əliyev ziyalılara 24 oktyabr 1992-ci ildə ”Səs” qəzeti vasitəsi ilə ünvanladığı cavab məktubunda demişdir: ”Hörmətli ziyalılar 16 oktyabr 1992-ci il tarixli ”Səs” qəzetində dərc olunan müraciətinizlə böyük diqqət və ehtiramla tanış oldum. Müraciətinizdən, mətbuat və televiziyadan, Azərbaycanın müxtəlif bölgələrindən gələn məktublardan aldığım məlumatlardan aydın olur ki, respublikada ictimai-siyasi və sosial-iqtisadi vəziyyət son dərəcə ağırdır. Bu şəraitdə Azərbaycan ziyalılarının narahatçılığı haqlıdır və təqdirəlayiqdir”. Cavab məktubunda o fikir də vurğulanır ki, Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur: ”Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir. Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur. Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zərurətdən doğulur. Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram”.

Ardı Səh. 6

# Əməli fəaliyyəti ilə zəfərlər yazan
# LİDER

Ulu Öndər Heydər Əliyevin ziyalılara cavab məktubunun "Səs" qəzetində dərc olunması ən ağır gündə "Səs"in xalqın yanında olduğunu göstərir



Əvvəli səh. 5

## Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi

Beləliklə, Azərbaycanın bütün bölgələrini əhatə edən 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə müvəffəq oldular. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirilmiş təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Ulu Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da ölkəmizin həyatında yeni və sürətli inkişaf dövrünün əsası qoyuldu. YAP çətin, ağır dövrdə yaransa da, Dahi Öndərimiz Heydər Əliyevin müdrik qərarları, uzaqgörən siyasəti ilə bütün çətinlikləri aradan qaldıraraq Azərbaycanı sabit, inkişaf edən dövlətə çevirdi. Qısa müddətdə YAP cəmiyyətin aparıcı partiyasına, Cənubi Qafqazın lider partiyasına çevrildi. O dövrdə YAP-ın yaradılmasını zərurət olduğunu bildirən Dahi Öndərimiz Heydər Əliyev deyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içərisindən çıxan zərurətdir... Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan... ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır".



Dahi Öndərimiz Heydər Əliyevin nüfuzu Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına imkan yaratdı. Ölkə dağılmaq ərəfəsində olduğu çətin vaxtda xalq birlik və bərabərlik nümayiş etdirək Ulu Öndər Heydər Əliyevdən Bakıya gəlməyi və onları bəlalardan xilas etməyi xahiş etdi. Dahi Öndər 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıtdı. Ulu Öndər Heydər Əliyev iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Aparılan düzgün, müdrik siyasət nəticəsində sosial, iqtisadi inkişafa nail olundu, sabitlik təmin edildi, beynəlxalq təşkilatlarla, ayrı-ayrı ölkələrlə əməkdaşlıq əlaqələri quruldu. Xalq bu böyük xidməti lazımınca qiymətləndirdi. 1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqının mütləq əksəriyyətinin Dahi Öndərimiz Heydər Əliyevə səs verərək Onun Prezident seçilməsini dəstəklədi. Prezident seçkilərində 3 milyon 966 min 327 seçicinin 3 milyon 919 min 923 nəfəri, yaxud 98,84 faizinin seçimi Ulu Öndərimiz Heydər Əliyev oldu. Seçki ərəfəsi xalqla görüşündə Ulu Öndərimiz Heydər Əliyev demişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası demokratiya yolu ilə getməlidir, heç vaxt totalitar sistemə, kommunist rejiminə qayıtmamalıdır. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Biz iqtisadiyyatda köklü islahatlar aparıb, bazar iqtisadiyyatına keçməliyik. Bizim borcumuz bütün Azərbaycanın simasını dəyişdirməkdir, Azərbaycanı inkişaf etmiş, sivilizasiyalı, demokratik prinsiplərlə yaşayan bir dövlətə, cəmiyyətə çevirməkdir, Azərbaycan vətəndaşlarının gələcək həyatını azadlıq, demokratiya yolu ilə təmin etməkdir. Biz bu yolun yolçusuyuq, bu yolla da gedəcəyik. Bu yol xalq yoludur".

## Yeni inkişafa, yeni uğurlara doğru

Ulu Öndər Heydər Əliyevin prezident seçkilərində böyük üstünlüklə qələbə qazanması xalqın Ona olan hədsiz sevgisinin, böyük dəyərinin göstəricisi idi. Tam qətiyyətlə demək olar ki, bugünkü azad və demokratik, xalqın iradəsi əsasında baş tutan seçkilərin ilkin bünövrəsi 3 oktyabr 1993-cü ildə qoyulub. Xalq-hakimiyyət birliyi nəticəsində 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı məharətlə alındı. Müstəqillik yolunda inamla addımlayan Azərbaycan qısa zaman kəsiyində dünyada baş verən demokratikləşmə prosesinin iştirakçısına çevrildi. Heydər Əliyev 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamaqla Azərbaycanı siyasi, iqtisadi və hərbi böhrandan qurtardı. Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanan 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Birmənalı mövqe ondan ibarətdir ki, əfsanə kimi görünən "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmışdır ki, bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bakı-Tbilisi-Ceyhan kəməri Azərbaycanın yeni neft strategiyasının təməl daşı, iqtisadiyyatımızın ana xəttidir. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin imzalanması ilə Dahi Öndərimiz Heydər Əliyev təkcə Azərbaycanın deyil, həm də Gürcüstan və Türkiyənin də iqtisadi inkişafına zəmin yaratdı. 12 noyabr 1995-ci il tarixində ümumxalq səsverməsi-referendum yolu ilə 5 fəsil 159 maddədən ibarət olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.

Sonrakı mərhələ də çoxpartiyalı sistem əsasında parlament seçkilərinin keçirilməsi dövlətçiliyin siyasi-hüquqi əsaslarının möhkəmləndirilməsinə mühüm töhfə verdi. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqlarının müvəkkili (Ombudsman) təsisatı yaradıldı. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılması hüquqi əsasda təsbit etmiş oldu. Eyni zamanda 1993-cü ildən Ulu Öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu.



## YAP bundan sonra da inkişaf edəcək və xalqa, dövlətə xidmət etməklə yeni-yeni parlaq qələbələr qazanacaq

Xalqın partiyası olan Yeni Azərbaycan Partiyası bütün sahələrdə inkişaf edir və bununla yanaşı cəmiyyətin inkişafına, xüsusilə də demokratik proseslərin sürətlənməsinə töhfələr verir. 1999-cu ildə keçirilmiş qurultaydan sonra Yeni Azərbaycan Partiyasının inkişafında mühüm bir səhifə açıldı. YAP-ın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq Cənab İlham Əliyevin təmsilçiliyi partiyanın dinamik inkişafına yeni təkan verdi. O zaman ARDNŞ-nin birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan Cənab İlham Əliyev partiyanın sədr müavini seçildi. Məhz 1999-cu ildən sonra Yeni Azərbaycan Partiyası dünyanın bir sıra ölkələrinin siyasi təşkilatları ilə ikitərəfli əlaqələr qurdu, beynəlxalq təşkilatlarda təmsilçilik hüququ qazandı. Buna isə yeni dövrün yeni lideri olan Cənab İlham Əliyevin xüsusi xidmətləri sayəsində nail olundu. 2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP Sədrinin birinci müavini Cənab İlham Əliyevin partiyanın Sədri seçilməsi ilə partiyanın həyatında yeni mərhələ başladı. Uğurların, nailiyyətlərin miqyası 2005-ci ildə keçirilən qurultaydan sonra bir qədər də artdı. Faktlara istinad etsək buna bir daha əmin olmaq olar. Belə ki, əgər YAP-ın 2001-ci ildə keçirilmiş II Qurultayı zamanı partiya üzvlərinin sayı 230 min nəfər idisə, III Qurultaya qədər bu göstərici 360 min nəfərə yüksəlmişdi. Hazırda isə partiyamızın üzvlərinin sayı 800 minə yaxındır. 2021-ci ilin mart ayında keçirilən VII qurultay isə Yeni Azərbaycan Partiyasının inkişafında yeni dövrün əsası qoyuldu. Çünki Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsində müasir dövrün tələblərinə uyğun dəyişikliklər oldu. Bunu həm də ölkədə aparılan köklü islahatların davamı da adlandırmaq olar. Beləliklə YAP-ın Sədri, Fateh Sərkərdə İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyeva partiya Sədrinin birinci müavini təyin olundu. Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini təyin olunması qadınların ictimai-siyasi fəallığına təkan verən əsas amillərdən biri oldu. Məhz bu təyinatdan sonra qadınların YAP-a axını daha geniş xarakter aldı.

Bu və digər amilləri nəzərə alaraq qeyd edə bilərik ki, YAP cəmiyyətin ən inkişaf edən, kəmiyyət və keyfiyyət baxımından rəqib tanımayan partiyasıdır. Dövlətimizin qurucusu, xalqımızın xilaskarı partiyamızın yaradıcısı Ümummilli Liderimiz Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır. Əminliklə demək olar ki, Yeni Azərbaycan Partiyası öz potensialı, real addımları və bacarıqlı kadrları ilə bundan sonra da inkişaf edəcək və xalqa, dövlətə xidmət etməklə yeni-yeni parlaq qələbələr qazanacaq.

***İLHAM ƏLİYEV***



# Avropa İttifaqına üzvlük fonunda RİSKLİ OYUNLAR

***Ermənistan vətəndaşları referenduma və hansısa sənədə imza atmağa qətiyyən tələsmirlər. Əksinə, tərəddüd etdikləri ilk baxışdan da hiss olunur və qonşu ölkələrlə münasibətlərin normallaşdırılmasından öncə hara isə qoşulmaq kimi bir fikrin doğruluğuna qətiyyən inanmırlar. Hətta ölkənin radikal qərbyönümlü partiyalarının təyin olunmuş müddətdə Aİ-yə daxil olmaq barədə referendumun keçirilməsi üçün lazımi sayda imza toplaya bilməyəcəyi haqda Ermənistana məxsus mətbuat səhifələrində gedən müzakirələr belə hayların narahatlığından xəbər verir.***

## Referendum keçirmək üçün Ermənistan vətəndaşlarından imza toplanılması Avropa İttifaqına üzvlük üçün canfəşanlıq edilməsi deməkdir

Rəsmi İrəvan hazırkı dönəmdə, bu məqamda da manipulyasiyalara əl atır. Ermənistan vətəndaşları üçün Avropa İttifaqı vizalarının ləğvi ilə bağlı İrəvanın danışıqlara başlamasını Ermənistan hakimiyyəti məhz işğalçı ölkənin Aİ-yə daxil olması istiqamətində ciddi addım kimi göstərməyə və bu fikri daxili auditoriyaya sırımağa çalışır. Amma hələ də tərəddüdün olduğu danılmazdır və bu hətta etiraf da edilir. Doğrudur, erməni baş nazir Nikol Paşinyanın "Mülki Müqavilə" partiyası ilə müttəfiq olan, özü də radikal qərbyönümlü partiyalar Aİ-yə üzvlüklə bağlı referendum keçirilməsini çoxdan tələb edib. Bununla bağlı müvafiq dinləmələrin keçirildiyini də bilirik. Hər halda, Avropa İttifaqı bayrağının dinləmələr zamanı tribunada qaldırılması və Rusiya əleyhinə bəyanatların səsləndirilməsi də yaddan çıxan deyil. Bütün bunlar onu göstərir ki, Aİ-yə üzvlük üçün çoxdandır canfəşanlıq edilir. Referendum keçirmək üçün Ermənistan vətəndaşlarından imza toplanılması təsdiq edir ki, onların canfəşanlığı və cəhdləri hələ də davam etməkdədir.

Belə görünür ki, nə qədər tərəddüdlər olsa belə Rusiyaya arxa çevirərək, Avropa İttifaqına üz tutmaqda maraqlı qüvvələr kifayət qədərdir. Bəzi qüvvələr elə hesab edilər ki, Avropa İttifaqına üzv olmaqla, bütün problemlər öz həllini təbii şəkildə tapacaq. Doğrudur, Avropa İttifaqına üzv olmaq istəyi, hələ ittifaqın üzvü olmaq demək deyil. Həmin ittifaqa üzv olmaq istəyənlər keçirmək istədikləri referendumda da istədikləri nəticəni əldə etsələr belə, bu, o demək deyil ki, Ermənistan dərhal Aİ üzvü olacaq, xeyr. Bu, heç müzakirə mövzusu da deyil. Müzakirə mövzusu odur ki, işğalçı ölkənin Avropa İttifaqına üzvlüyü ilə bağlı tərəddüdlər heç də əbəs deyil və bunun bir səbəbinin olması da danılmazdır. Referendum keçirmək üçün Ermənistan vətəndaşlarından imza toplanılması və Avropa İttifaqına üzvlük üçün canfəşanlıq edilməsi fonunda qorxuların olması hələ də hayların hansısa qərara gələ bilmədiyi və bunun nətəcələrinin daha acınacaqlı olacağından ehtiyat etmələrinin, daha dəqiq desək, qorxu kompleksinin təzahürüdür. Hər halda, riskli oyunlara baş vurduqlarını özlərinin də başa düşmələri səbəbindən ermənilər qoxu içərisindədirlər və tərəddüdləri də başa düşüləndir.

## Regionda sülhün təmin olunmasına hansısa formada rəvac vermək əvəzinə dəstəyə, yardıma ümid etmək Ermənistana baha başa gələ bilər

Rəsmi İrəvan bütün hər vəchlə hərbi əməkdaşlığa can atır. Ermənistan hökuməti istənilən bir addımda yenə də hərbi istiqamətdə yardım axtarır. Bir tərəfdən sülhdən dəm vuran Ermənistan hakimiyyəti digər tərəfdən də hərbi dəstək üçün bütün vasitələrə əl atır. Vəziyyəti hədsiz dərəcədə ağır olan işğalçı ölkə hələ də çirkin niyyətlər planlayır. Regionda sülh danışıqlarından söhbət getdiyi bir dönəmdə Avropaya yaltaqlanaraq hansısa yardıma ümid edir. İrəvan heç də hansısa ittifaqa, xüsusən də Avropa İttifaqına üzv olmaq məsələsini boş yerə ortaya atmır. Paşinyan hələ də riskli oyununu davam etdirir. Onun bu oyunlarının hansısa effektindən söhbət gedə bilməz, amma niyyətinin yenə də çirkin olması özünü göstərməkdədir. Məsələ burasındadır ki, regionda sülhün təmin olunmasına hansısa formada rəvac vermək əvəzinə Avropa İttifaqına üzvlük məsələsini ortaya atmaq, əvəzində də yardım və dəstək gözləmək, daha doğrusu ummaq Ermənistan üçün baha başa gələ bilər. Çünki belə bir dəstəyə ümid edərək, yenə də sülhdən uzaqlaşmaq, region ölkələri ilə münasibətlərin normallaşmasına mane olmaq Ermənistan üçün sözün əsl mənasında riskli addımlardır. Hər halda, marginallaşmış, küncə qısılmış durumda, regional və qlobal layihələrdən kənarda qalmış bir vəziyyətdə olan Ermənistanın mehriban qonşuluq siyasəti yürüdərək, həmin layihələrə qoşulması, özünü dalana dirənmiş vəziyyətdən çıxarması əvəzinə yenə də hansısa qaranlıqlara sürüklənməsi işğalçı ölkəni daha dərin quyuya doğru apardığını başa düşməmək ağılsızlıqdır. Belə bir ağılsızlıq isə təhlükəli, riskli oyunların fonunda özünü göstərməkdədir. Görünür, erməni baş nazir bunun ya fərqində deyil, ya da heç fərqinə varmaq istəmir. Amma istənilən halda, Avropa İttifaqına üzvlük söz-söhbəti fonunda belə riskli oyunlara baş vurduğu təkzib edilməzdir.

## Aİ-yə üzvlük söz-söhbəti belə bütövlükdə erməni cəmiyyəti üçün, lap elə bir dövlət kimi Ermənistan üçün kifayət qədər risklidir

Bilirik ki, başda elə erməni baş nazir özü olmaqla, bütövlükdə Ermənistan hakimiyyəti bu vaxta qədər ən təhlükəli oyunlara baş vurubsa da istədiyi heç bir nəticəni əldə edə bilməyib. Bundan donra da hayların hansısa nəticəyə ümid etmələri mənasızdır. Çünki qətiyyən buna ümid etməyə dəyməz. Bəlkə də ABŞ və Avropanın bəzi ölkələri Nikola hansısa vədlər verib. Bəlkə də Aİ-yə üzvlüklə bağlı boş sözlər də verilib. Belə vədlərin İrəvana vaxtaşırı verildiyinin dəfələrlə şahidi olmuşuq və bilirik ki, Paşinyanı da, onun hakimiyyət komandasını da "dingildədən" hər zaman elə həmin vədlər olub, amma bu vədlərlə Ermənistan nə isə qazanmayıb. Deməli, yenə də Vovayeviç öz hakimiyyət komandası ilə sadəcə boş yerə təhlükəli və riskli oyunlara baş vurur. Yəqin, belə riskli addımlardan sonra başlarının əzildiyini unudublar və belə çıxır ki, xatırlatmalara ehtiyac duyurlar.

Doğrudur, Azərbaycana qarşı "müharibə yox, sülh" siyasətinin davam etdirilməsi naminə İrəvan açıq şəkildə Aİ-ni alətə çevirmək imkanından istifadə etməyə çalışır və belə görünür ki, bundan da yaman məmnundur. Hər halda, 2023-cü ilin fevral ayından Ermənistanda müşahidə missiyası adı altında Aİ-nin kəşfiyyat missiyasının fəaliyyət göstərməsi də həmin məmnunluğu təsdiq edir. Xüsusən də Ermənistan liderlərinin müntəzəm şəkildə həmin missiyanın işi haqqında müsbət danışmaları da deyilənləri təsdiq edir. Amma bu missiyanın işğalçı ölkəyə hansısa mənfəət gətirdiyinin, yaxud haylara istədiklərini veridiyinin şahidi olan olmayıb və erməni liderlərin Aİ ilə bağlı dedikləri qətiyyən öz təsdiqini tapmır. Elə buna görə də haylar tərəddüd və qorxu içərisindədirlər və belə görünür, onların bəzilərinə də əyan olub ki, ölkələri təhlükəli, riskli oyunlar oynayır. Ona görə də haylar arasında referenduma münasibət birmənalı deyil, tamamilə fərqlidir. Ermənilərin əksəriyyəti başa düşürlər ki, sözügedən ittifaqa nəinki üzv olmaq, hətta üz olmaq naminə referendum keçirmək belə onların ölkələrinin Rusiya ilə daha ciddi şəkildə narazılıqlarına gətirib çıxaracaq və bu da işğalçı ölkə üçün heç də arzuolunan deyil. Əgər ermənilər hələ də Rusiyadan çəkinirlərsə, Kremlin əlində olan rıçaqlardan ehtiyat edirlərsə, rusların qəzəbindən qorxurlarsa, deməli, başa düşürlər ki, Aİ-yə üzvlük söz-söhbəti belə bütövlükdə erməni cəmiyyəti üçün, lap elə bir dövlət kimi Ermənistan üçün kifayət qədər risklidir.

## Cənubi Qafqazı dünya və regional güclərin döyüş meydanına çevirmək planları işə salına bilər və nəticəsi Ermənistan üçün hədsiz dərəcədə acınacaqlı olar

Onsuz da Ermənistanın Aİ-yə üzvlüyü xəyalpərəstlikdən başqa bir şey deyil, çünki hazırda Paşinyan Avropa İttifaqına üzv ölkələr arasında müttəfiqlərinin dairəsini genişləndirə bilməyib. Hələ də işğalçı ölkənin müttəfiqi sırasında eyni ölkələr, daha dəqiq desək, Fransa, Yunanıstan və bəzi kiçik dövlətlər var. Buna görə də Paşinyanın gələcək addımlarında, hətta Aİ-yə daxil olmaq üçün referendumun keçirilməsi ilə bağlı fikirlərində belə qeyri-müəyyənlik var. Nikol özü də yaxşı bilir ki, uydurduğu üzvlük xam xəyallardan başqa bir şey deyil. Bilir ki, ölkəsi nə həmin ittifaqa üzv olan deyil, nə də hansısa risklərdən yaxa qurtarmaları mümkün süyılmır. Əksinə, ortalığa atılan həmin Aİ-yə üzvlük söz-söhbəti Ermənistan üçün, haylar üçün həddindən artıq riskli sayılır.

Ermənistanın qonşu Azərbaycanla, eləcə də Türkiyə ilə münasibətləri nizamlanmadan, normallaşdırmadan, rabitə şəbəkəsinin bərpası yolu ilə Cənubi Qafqazın tarixi birliyi bərpa edilmədən, üzvlük prosesinin davam etməsinin nə dərəcədə riskli olduğunu haylar da başa düşməlidirlər. Görünür, bəziləri başa düşürlər deyə, erməni cəmiyyətində Aİ ilə bağlı hələ də tərəddüd var. Xüsusən qeyd etmək lazımdır ki, əgər regionda normallaşma olmadan Brüssel və İrəvan Avropaya inteqrasiya ilə məşğul olmağa çalışsa, şübhəsiz ki, Aİ ilə yaxınlaşmalarından bir çox erməni siyasətçilər istifadə edərək, revanşist əhval-ruhiyyəni daha da qızışdıra, gücləndirə bilərlər. Çünki belə məqamdan istifadə edərək, onlar Brüsseldə, ümumiyyətlə, "kollektiv Qərb"də tərəfdaşlar tapa və şübhəsiz ki, Cənubi Qafqazı dünya və regional güclərin döyüş meydanına çevirmək planlarını işə sala bilərlər. Bunun da nəticələri Ermənistan üçün hədsiz dərəcədə acınacaqlı ola bilər. Daha doğrusu, bu, məhz işğalçı ölkə üçün hədsiz dərəcədə acınacaqlı nəticə vəd edir. Deməli, Aİ-yə üzvlük məsələsi Ermənistan üçün istənilən halda riskli oyunlardır.

***İnam Hacıyev***

# Regionda ilk dəfə COP29

## Prezident İlham Əliyev: "Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir"

**“COP29-a hazırlıq işləri artıq son mərhələdədir. Ölkəmizdə bu işlərə bir ildən də az vaxt olmasına baxmayaraq, Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün səylərini əsirgəmir”. Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də ”MAN Truck&Bus” şirkətinin baş direktoru Aleksandr Vlaskampı qəbul edərkən bildirib. Dövlətimizin başçısı COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı 198 ölkənin yekdil dəstəyini yüksək qiymətləndirərək bu cür tədbirin regionda birinci dəfə ölkəmizdə təşkil edilməsinin böyük önəm daşıdığını bildirib.**



Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavab oldu. Beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi edən Azərbaycan COP29-un təşkili baxımından üzərinə düşən vəzifəni layiqincə yerməkməqsədi ilə tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin 2024-cü ili ”Yaşıl dünya naminə həmrəylik ili” elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərin önündə olmasına sadiqliyini nümayiş etdirən strateji addımdır. COP29-a hazırlıqla bağlı isə Prezidentin müvafiq sərəncamı ilə Təşkilat Komitəsi yaradılıb, əlaqədar qurumlar səfərbər edilib. Bu mötəbər tədbirə Azərbaycanın ev sahibliyi etməsi təkcə beynəlxalq ictimaiyyətin ölkəmizə etimadının göstəricisi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizədə əhəmiyyətli işlərin aparılması üçün əlverişli fürsət və böyük məsuliyyətdir. COP29-a hazırlıq sürətlə aparılır. Ölkəmizdə hazırlıqla bağlı həyata keçirilən tədbirlər sırasında müxtəlif təşkilatlar tərəfindən təşkil olunan təlimlər də xüsusi rol oynayır.









### AZƏRBAYCANIN YAŞIL ENERJİ SİYASƏTİNƏ QLOBAL DƏSTƏK

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarını 40 faiz azaldılmasından ibarətdir.

Prezident İlham Əliyev Azərbaycanda yaşıl və bərpaolunan enerjiyə keçid istiqamətində böyük işlərin görüldüyünü və artıq bir sıra mühüm layihələrin reallaşdırıldığını bildirib. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını ”Yaşıl enerji” zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək ”Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur. COP29-un Bakıda keçirilməsi qərarı, həm də Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir. Buna uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilib.

### ”MAN TRUCK&BUS” ŞİRKƏTİ İLƏ ƏMƏKDAŞLIQ

Dövlətimizin başçısı ölkəmizdə nəqliyyat sisteminin də səmərəli fəaliyyəti üçün tədbirlər görüldüyünü və bu baxımdan ”MAN Truck&Bus” şirkəti ilə əməkdaşlığın əhəmiyyətinə toxunub. Görüşdə ölkəmizlə ”MAN Truck&Bus” şirkəti arasında potensial əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparılmasından məmnunluq ifadə edilib, şirkətin Azərbaycanda fəaliyyətinə dair fikir mübadiləsi aparılıb. Bu şirkətin istehsalı olan çox sayda texnikanın ölkəmizdə istifadə edildiyi bildirilib. Azərbaycanın artan sosial-iqtisadi potensialı və ehtiyacları nəzərə alınaraq şirkətin məhsullarının alınması ilə yanaşı, ölkəmizdə yerli istehsal imkanları da müzakirə olunub və bunun üçün vahid işçi qrupu çərçivəsində araşdırmaların həyata keçirilməsi barədə razılıq əldə edilib.

COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı təbriklərini çatdıran qonaq bunun çox önəmli bir tədbir olduğunu vurğulayıb. Aleksandr Vlaskamp COP29-da nəqliyyat sahəsinin də mühüm amil olduğunu deyərək, bu istiqamətdə Azərbaycanla əməkdaşlığın önəminə toxunub.

### “YAŞIL ENERJİ NÖVLƏRİNİN YARADILMASI VƏ YAŞIL ENERJİNİN DÜNYA BAZARLARINA NƏQLİ HAZIRDA BİZİM ENERJİ SİYASƏTİMİZİN PRİORİTETİDİR”

”Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək”, - deyə Prezident İlham Əliyev çıxışlarının birində vurğulamışdır. Azərbaycan yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Rəsmi mənbələrin məlumatına istinadən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir. Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş ”Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri” əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri ”təmiz ətraf mühit” və ”yaşıl artım”la bağlıdır. Azərbaycan alternativ enerji mənbələrinə uğurlu keçid nümunəsidir və yaşıl enerjiyə keçidə yönəlmiş innovativ yanaşmaların tətbiqi üzrə regionda liderdir, iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizəyə ciddi töhfə verir.

### AZƏRBAYCANIN GEOSİYASƏTİ ÜÇÜN VACİB TOPLANTI

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bildirək ki. SOP28 ötən il Dubayda keçirildi, bu il isə dünyanın gözü COP29-a ev sahibliyi edəcək Bakıda olacaqdır. Bütün dünya ölkələrinin dövlət rəhbərləri bir araya gəlib iqlim dəyişikliyi ilə bağlı məhz Bakıda həll yolları axtaracaqlar. Bu ölkəmiz üçün, onun enerjisi, geosiyasəti üçün son dərəcə vacib bir toplantı kimi əhəmiyyət daşıyacaqdır. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır. 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulan Azərbaycan beynəlxalq ekoloji təşəbbüslərdə mühüm rol oynayıb. Dubaydakı COP28 sammitində Azərbaycanın yüksək səviyyədə təmsil olunması bunun daha bir təzahürüdür. COP28 sammitində Azərbaycanın fəal iştirakı əlbəttə ki, ölkəmizin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəyə töhfə verməsinə əsaslanırdı. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı prioritet sahə kimi qəbul etdiyini bütün dünyaya sübut edəcək. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə təqdiminə böyük təkan verəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gürcüstan çətin sınaqdan necə çıxacaq?

*Oktyabrın 26-da keçiriləcək parlament seçkilərinə hazırlaşan Gürcüstan cəmiyyətində parçalanma müşahidə edilir. Söhbət parlament seçkiləri ilə bağlı Gürcüstanda siyasi atmosferin həddsiz dərəcədə gərginləşməsindən, iqtidar-müxalifət qarşıdurmasının pik həddə çatmasından, cəmiyyətdə parçalanma meyillərinin güclənməsindən gedir. Əlbəttə, seçkiöncəsi mərhələdə hakim komanda ilə müxalifətdə dayanan partiyalar arasında rəqabətin güclənməsini gözlənilən təbii siyasi proses kimi dəyərləndirmək olardı*



Ancaq seçkiöncəsi mərhələdə Gücüstanda vəziyyəti gərginləşdirən ölkənin daxilindəki təsirlər deyil. Burada pərdəarxası məqamlar da çoxdur. Gürcüstanda Şərq-Qərb savaşı getdiyinin izləri də açıq-aydın müşahidə edilməkdədir. İqtidarla müxalifət arasında fikir ayrılığının getdikcə dərinləşməsi də məhz bu amildən qaynaqlanır. Şərq dedikdə qonşu Rusiya, Qərb dedikdə isə Avropa İttifaqı və ABŞ nəzərdə tutulur.





Hazırda Gürcüstan Qərbin ciddi təzyiqləri ilə üzləşib. Bu ilin yayında "Xarici təsirin şəffaflığı haqqında" qanun qəbul olunduqdan sonra bu təzyiqlər xeyli güclənib. Qərb o qənaətdən çıxış edir ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun Gürcüstanın siyasi oriyentasiyasını Avropadan Rusiyaya doğru dəyişmək məqsədilə qəbul olunub. Halbuki belə bir izahın əsası yoxdur. Bu, Qərbin növbəti riyakarlığıdır. Gürcüstan hakimiyyəti dəfələrlə bəyan edib ki, oxşar qanunlar, həmçinin Fransada, ABŞ-də və digər ölkələrdə də qəbul olunub. Ancaq həmin ölkələrə irad tutulmur, Gürcüstan isə total ittihamlarla üzləşib.

Beləliklə, Qərb dairələri bəhs olunan qanunun qüvvəyə minməsini əngəlləməyə çalışır. Gürcüstan hakimiyyəti isə qanunun işləməsində israrlıdır. Qərb dairələri, həmçinin Gürcüstan parlamentinin sentyabr ayının 17-də qəbul etdiyi "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi"haqqında qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri də budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Maraqlıdır, Gürcüstanın ərazisində ailə institutunu qorumağa yönəlmiş addımlar atmasından Avropa niyə narahatdır?

Gürcüstan Avropa strukturlarına, o cümlədən Avropa Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına (ATƏT), yaxud Avropa Şurasına ona görə üzv olmayıb ki, gəlib burada "LGBT+" hərəkatını, yaxud "Radikal feminizm"i stimullaşdırsınlar, ailə institutunu dağıtsınlar. ATƏT-ə, AŞ-yə üzv olmaqda məqsəd ölkənin təhlükəsizliyinə təminat almaqdır, demokratik inkişaf yolunda dəstək qazanmaqdır.

Qərb dairələri müxtəlif vasitələrlə Gürcüstanda daxili gərginliyi dərinləşdirməyə çalışır. Qərb blokuna açıq rəğbətini gizlətməyən prezident Salome Zurabişvili hakim komandanı Şərq blokunun, konkret desək, Rusiyanın maraqlarına uyğun siyasət aparmaqda günahlandırır, bununla yanaşı, ayrı-ayrı siyasi qüvvələr də Qərbdən gələn tezislərə uyğun davranırlar.

Qərbin artan təzyiqləri fonunda Gürcüstan Mərkəzi Seçki Komissiyasının (MSK) əməkdaşlarının telefonlarına təhdid mesajları da gəlməyə başlayıb. Bu barədə MSK sədri Giorgi Kalandarişvili məlumat verib. Onun sözlərinə görə, MSK əməkdaşlarına gələn bütün mesajlarda ünvan sahibinin adı var ki, bu da mesajın müəllifinin həmkarlarımızın şəxsi məlumatlarını bildiyini təsdiqləyir. Kalandarişvili vurğulayıb ki, oxşar hallar əvvəllər də baş verib. MSK əməkdaşlarına rüşvət vermək, qorxutmaq və ya başqa tədbirlər görmək istəyiblər.

Qeyd edək ki, Gürcüstan Daxili İşlər Nazirliyinin (DİN) adından da vətəndaşlara saxta bildirişlər göndərilir. DİN-in rəsmi səhifəsində deyilir ki, vətəndaşları məlumatlandırmaq üçün nazirlik tərəfindən heç bir mesaj göndərilməyib. DİN vətəndaşları yanılmamağa çağırıb və faktın araşdırılacağını bəyan edib.

Bütün təzyiq və təhdidlərə rəğmən iqtidar seçkilərin demokratik keçiriləcəyinə təminat verir, eləcə də hakim partiya öz qələbəsinə inanır. Gürcüstanın Baş naziri, hakim partiyanın seçki qərargahının rəhbəri İrakli Kobaxidze söyləyib ki, Gürcüstan parlamentinə seçkilər azad, şəffaf, demokratik, rəqabətli olacaq və hakim "Gürcü Arzusu-Demokratik Gürcüstan" Partiyasının qələbəsi ilə başa çatacaq. Bununla belə o, müxalifətin təxribatlara hazırlaşdığını deyib. Baş nazir bildirib ki, oktyabrın 26-na təyin edilən seçkilər ilk dəfə olaraq yalnız proporsional sistem üzrə və geniş miqyasda elektron texnologiyalardan - səslərin yoxlanılması və hesablanması aparatlarından istifadə etməklə keçiriləcək.

Qərbin Gürcüstana qarşı təzyiqi bununla da bitmir. Gürcüstan Qərbdən gələn siyasi bəyanatlarla yanaşı, həm də praktiki müstəvidə atılan sərt addımlarla, ayrı-ayrı təsisatlarda qəbul olunan qərəzli qətnamələrlə üzləşir. Belə ki, Gürcüstan hökuməti Avropa İttifaqının (Aİ) 121 milyon avro məbləğində maliyyə yardımından məhrum olacaq. Aİ buna səbəb kimi Gürcüstan hökumətinin "demokratik standartlardan uzaqlaşmasını" göstərir. Aİ-nin Gürcüstandakı nümayəndəliyinin yaydığı məlumatda bildirilir ki, Avropa İttifaqı 2022, 2023 və 2024-cü illərdə Gürcüstan hökuməti üçün 121,3 milyon avro məbləğində illik vəsait ayırıb. Lakin bu vəsait 2024-cü ildə dayandırılacaq: "Buna səbəb Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması, xüsusən də vətəndaş cəmiyyətinə qarşı yönəlmiş "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbulu olub. Gürcüstan təkcə bu yardımı deyil, digər yardımlardan da məhrum edilə bilər".

ABŞ tərəfindən də bu ölkəyə qarşı bir sıra maliyyə yardımları dayandırılıb. Artıq bu ölkə də Gürcüstana dəstəyini dayandırdığını bəyan edib. ABŞ Dövlət katibi Antoni Blinkenin verdiyi məlumata görə, söhbət Gürcüstan hökumətinə dəstək üçün nəzərdə tutulan 95 milyon dollardan artıq yardım paketinin dayandırılmasından gedir. ABŞ rəsmisi də Gürcüstanda qəbul olunan qanunun Qərb dəyərlərinə zidd olduğunu, ölkənin Aİ və NATO-ya üzvlük standartları ilə bir araya sığmadığını söyləyib. "Gürcüstan hökumətinin hərəkətlərindən sonra mən ABŞ və Gürcüstan arasında ikitərəfli əməkdaşlığın hərtərəfli nəzərdən keçirilməsini elan etdim. Bu araşdırma nəticəsində ABŞ Gürcüstan hökumətini dəstəkləmək üçün 95 milyon dollardan çox yardımı dayandırır", - deyə A.Blinken vurğulayıb.Qərb düşünür ki, bu yolla Gürcüstandakı seçkilərə təsir göstərə biləcək.

Göründüyü kimi, bir vaxtlar Avropa İttifaqına üzvlüklə şirnikləndirilən rəsmi Tbilisi indi bu prosedurun dayandırılması və sanksiyalar tətbiqi ilə hədələnir. Belə hədələr ABŞ, Avropa İttifaqı rəsmilərinin, AŞPA deputatlarının açıqlamalarında birmənalı şəkildə ifadə olunur.

Bütün bu proseslər Qərbin Cənubi Qafqaz coğrafiyasında mövcudluğunu təmin etmək və geosiyasi üstünlük qazanmaq planlarının tərkib hissəsidir. Bu gün Cənubi Qafqazın üç dövlətindən ikisi - Azərbaycan və Gürcüstan Amerika Birləşmiş Ştatlarının, Avropa İttifaqının hədəfinə çevrilib. Burada söhbət heç də obyektiv tənqiddən getmir. Rəsmi Bakı və rəsmi Tbilisi apardıqları siyasətdə milli maraqları önə çəkirlər, müstəqillik və suverenlik prinsiplərinə əsaslanmaqla digər mərkəzlərdən gələn diktələri rədd edirlər. Bölgənin əsas aktoru Azərbaycanın qətiyyətli siyasi gedişləri sayəsində bu planlar iflasa uğradılıb. Xüsusilə də 2020-ci ildəki Vətən müharibəsindən və 2023-cü ildəki antiterror tədbirlərindən sonra regiondan qovulan Qərb hazırda yenidən Gürcüstana fokuslanıb, ölkəni daxildən parçalamaq üçün çirkin kampaniya aparır.

ABŞ-ı, Qərbin apardığı siyasət təkcə Gürcüstana aid deyil, bəzi coğrafiyaları da əhatə edir. Onlar bu yolla Cənubi Qafqazda mövqe tutmaq istəyirlər. Buna görə də bir sıra dövlətlərdən istifadə etməyə cəhd göstərirlər. Artıq Ermənistanı öz təsirləri altına salıblar. Çünki Ermənistanın müstəqil daxili və xarici siyasəti yoxdur, o, diktə altında işləyir. Başqalarına heç nə verməmək, yalnız onlardan nə isə qoparmaq, tez-tez başqa dövlətlərin himayəsi altına keçmək bu ölkə və erməni toplumu üçün xarakterik bir haldır. Ermənistan bir vaxtlar Rusiyanın açıq-aşkar forpostu qismində çıxış edirdisə hazırda oriyentasiyasını Qərbə doğru dəyişib. ABŞ, Aİ hazırda Ermənistandan Rusiya və digər qonşu dövlətlər barəsində kəşfiyyat məlumatları toplamaq, həmçinin gələcəkdə daha geniş planlarını reallaşdırmaq üçün platforma kimi istifadə edir. Yəni, Cənubi Qafqazın milli dövlətlərinin fərqli mövqelərdən çıxış etmələri müqabilində Qərb Ermənistana adekvat münasibət sərgiləyir, onun "xidmətlərinin" müqabilində böyük həcmlərdə qrantlarla, hərbi və siyasi dəstəklə mükafatlandırılır, Azərbaycan və Gürcüstan isə açıq təzyiqlərə məruz qalır. Öz ərazisini region dövlətlərinə qarşı çirkin ssenarilərin reallaşdırılması üçün platforma kimi istifadə olunmasına razılıq verən Ermənistanın başına sığal çəkilməsi, əzizlənməsi, milli maraqlardan çıxış edən Azərbaycan və Gürcüstanın isə təhdidlərə məruz qalması Qərbin riyakarlığının açıq-aydın təzahürüdür.

Bu gün Cənubi Qafqazın taleyi Azərbaycan və Gürcüstandan asılıdır. Hər iki ölkənin bir-birinin ərazi və suverenliyini dəstəkləməsi, bölgədə əməkdaşlığın, inkişafın, tərəqqinin tərəfdarı olmaları regiona da təhlükəsizlik vəd edir. Azərbaycan dövləti hazırkı Gürcüstan hakimiyyəti ilə uğurlu əməkdaşlığa malikdir. Prezident İlham Əliyevlə Gürcüstanın Baş naziri İrakli Kobaxidze arasındakı etimada əsaslanan dostluq münasibətlər, şəxsi təmaslar, qarşılıqlı səfərlər, görüşlər, həm də iki ölkə arasında münasibətlərin inkişafına da birbaşa təsir göstərir.

Bu ilin martında Bakıda Prezident İlham Əliyevin və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin mətbuata bəyanatları çıxışı zamanı dövlətimizin başçısı xüsusi vurğuladı ki, Gürcüstan və Azərbaycan iki müstəqil dövlət kimi daim bir-birinin yanındadır, bizim dostluğumuz, qardaşlığımız dərin tarixi köklərə əsaslanır: "Bu gün hər iki ölkə birgə səylərlə nəinki öz iqtisadi inkişafını təmin edir, eyni zamanda bölgə üçün və böyük mənada Avrasiya üçün də önəmli ölkələrə çevrilib. Birgə həyata keçirdiyimiz infrastruktur layihələri - nəqliyyat, enerji layihələri bir çox ölkələr üçün böyük əhəmiyyət kəsb edir və bundan sonra da bu istiqamətdə əlavə addımlar atılacaq".

Qərb birdəfəlik dərk etməlidir ki, təhdid və təxribatları dost ölkələrin milli maraqlardan çıxış edən hökumətini tutduğu suverenlik yolundan geri döndərmək iqtidarında deyil.

***Yaqut Ağaşahqızı***

# Qərbin Kazanda iflası

## *BRİCS sammitinin ikinci günü başlayıb*




BRİCS sammitinin ikinci günü 23 oktyabr 2024-cü ildə Kazanda başlayıb. Sammitdə 36 ölkə və altı beynəlxalq təşkilat iştirak edir. Qonaqlar arasında BMT-nin baş katibi Antonio Quterreş də var. Qrupun sammiti ilk dəfə olaraq keçən il qəbul edilmiş beş yeni iştirakçı nəzərə alınmaqla "onluq" formatında keçirilir. Kazan-2024 BRİCS sammitinin ilk günündə Rusiya prezidenti Vladimir Putin dünya liderləri ilə bir sıra görüşlər keçirib. Bunlara Çin prezidenti Si Cinpinq, Cənubi Afrika prezidenti Siril Ramafosa və Hindistanın baş naziri Narendra Modi daxildir. Əsas müzakirə mövzuları çoxqütblü dünya, milli valyutalarda ödənişlərin genişləndirilməsi və assosiasiya üzvləri ilə onların tərəfdaşları arasında ticarətin artması olub.

2024-cü ildə Kazanda keçirilən BRİCS sammitinin ikinci günündə Putinin daha bir neçə görüşü planlaşdırılıb. Birincisi Türkiyə prezidenti




Rəcəb Tayyib Ərdoğanla, ikincisi isə İran prezidenti Məsud Pezeşkianladır. Bundan əlavə, Putin Efiopiyanın baş naziri Abiy Əhməd Əli ilə danışacaq.

"Qlobal Cənub və Şərq ölkələrinin BRİCS-ə görünməmiş marağını görməməzlikdən gəlmək düzgün olmazdı", Rusiya prezidenti Vladimir Putin oktyabrın 23-də BRİCS sammitinin məhdud tərkibdə keçirilən iclasında deyib. "Əlbəttə, Qlobal Cənub və Şərq ölkələrinin BRİCS ilə əlaqələrin gücləndirilməsində görünməmiş marağını görməməzlikdən gəlmək düzgün olmazdı. Artıq 30-dan çox dövlət bu və ya digər formada bu istəyi ifadə edib. Eyni zamanda, balansı saxlamaq və BRİCS-in effektivliyinin azalmasının qarşısını almaq lazımdır", - Rusiya lideri qeyd edib.

Eyni zamanda, Putin görüş iştirakçıların qlobal gündəliyin ən aktual məsələlərini nəzərdən keçirməyə və BRİCS-ə üzv ölkələrin beynəlxalq arenada əməkdaşlığı, o cümlədən kəskin regional münaqişələrin həlli mövzusu ətrafında fikir mübadiləsi aparmağa dəvət edib. BRİCS sammitində BMT-nin baş katibi Antonio Quterreş də iştirak edir. Kremlin mətbuat xidməti qeyd edib ki, liderlər sammitdə təşkilatın mümkün genişləndirilməsi məsələlərinə xüsusi diqqət yetirəcəklər.

Bir gün əvvəl, oktyabrın 22-də Putin BRİCS ölkələrinin liderləri ilə bir sıra danışıqlarda xüsusilə isti və mehriban olublar. Belə ki, Rusiya lideri Hindistanın baş naziri Narendra Modi ilə görüşü zamanı zarafatla deyib ki, münasibətlərin əldə olunmuş səviyyəsi tərcüməçilərsiz də ünsiyyətə imkan yaradır. Sammit bütün dünya ictimaiyyətinə BRİCS qrupunun yeni çoxqütblü dünyanın, yeni geosiyasət, diplomatiya və sülhün episentrinə çevrildiyini nümayiş etdirir. Bunu oktyabrın 22-də axşam Kazana gələn Venesuela prezidenti Nikolas Maduro xüsusilə qeyd edib. Venesuela prezidenti əlavə edib ki, onun BRICS sammitində iştirakı tarixidir.

Rusiya Federasiyası sədrliyi çərçivəsində 200-dən çox siyasi, iqtisadi və sosial tədbir təşkil edir. Misir prezidenti Əbdülfəttah əs-Sisi bildirib ki, o, BRİCS-in inkişafında mühüm irəliləyiş görür və bu birləşmənin bütün iştirakçılarının, o cümlədən ticarətin maraqları baxımından əldə edilir. O əlavə edib ki, BRİCS-ə qoşulma prosesində Rusiyanın dəstəyini yüksək qiymətləndirir. Rusiyanın sədrliyi ilə keçirilən 16-cı BRİCS sammiti çərşənbə axşamı axşam Kazanda dostluq şam yeməyi ilə açılıb. Lakin bundan əvvəl də prezident Vladimir Putin assosiasiyaya üzv ölkələrin liderləri ilə bir sıra ikitərəfli görüşlər keçirib. Sammitin vəzifəsi diqqəti kifayət qədər ümumi siyasi bəyannamələrdən inkişaf etməkdə olan ölkələrin fundamental maraqlarını əks etdirən konkret qərarlara yönəltməkdir.

Kazanda keçirilən "Ədalətli qlobal inkişaf və təhlükəsizlik naminə çoxtərəfliliyin gücləndirilməsi" devizi altında keçirilən sammit BRİCS tarixində ən yaxşılardan olub. Rusiya Federasiyası Prezidentinin köməkçisi Yuri Uşakovun sözlərinə görə, burada 36 ölkə və 6 beynəlxalq təşkilatın nümayəndələri iştirak edir. Sammitdə iştirak edən ölkələrdən 22 nümayəndə heyəti ən yüksək səviyyədə təmsil olunur. Kremlin Tatarıstanın paytaxtında keçirilən görüşü beynəlxalq gündəmin əsas hadisələrindən biri hesab etməsi təəccüblü deyil. Hətta CNN etiraf edib ki, Kazan sammiti son vaxtlar Rusiyada keçirilən "ən böyük beynəlxalq toplantı"dır. Forum Vladimir Putinə "BRICS həmkarları və dost ölkələrin yüksək rütbəli rəsmiləri ilə təkbətək söhbət etmək" imkanı verib.

Xatırladaq ki, BRİCS 2024-cü il yanvarın 1-dən 10 dövləti (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika, İran, Misir, Efiopiya, BƏƏ və Səudiyyə Ərəbistanı) birləşdirən qeyri-rəsmi klubdur. Onların payına Yer kürəsi ərazisinin 34%-i, əhalisinin 45%-i düşür və alıcılıq qabiliyyəti paritetində ÜDM qlobal dəyərin 36,7%-ni təşkil edir.

Eyni zamanda, BRİCS-in ciddi strukturu, nizamnaməsi və ya sədri yoxdur. Həm də aydın fəaliyyət proqramı yoxdur. Assosiasiya özünü qarşılıqlı faydalı tərəfdaşlıq platforması kimi təqdim edir və illik sammitlər formatında fəaliyyət göstərir. Məhz sammit görüşlərində üzv ölkələrin iqtisadi artımını sürətləndirmək və BRİCS-in dünya miqyasında mövqelərini gücləndirmək imkanları müzakirə olunur. Rusiya BRİCS-in qlobal Cənub dövlətləri üçün əsas cazibəsini onda görür ki, assosiasiya Qərbin diktəsinə əsaslanan köhnə beynəlxalq münasibətlər modelini inkar edir. Amerikanın "The Foreign Policy" jurnalına görə, BRİCS üzvləri yaxın gələcəkdə "Qərbin yeganə güc mərkəzi olmaqdan çıxacağını" proqnozlaşdırırlar və yeni dünya nizamına hazırlaşırlar. Bu baxımdan ticarət, investisiya, maliyyə, hüquq, diplomatiya və s. sahələrdə "görünməz, lakin son dərəcə vacib əlaqələr" qururlar.




Bununla belə, BRİCS ölkələrinin hər biri öz məqsədlərini güdür kimi görünür. ABŞ-ın barışmaz düşməni olan İranın daxil olması BRİCS-in anti-Qərb klubuna çevrilməsi hissini gücləndirə bilər. Digər ölkələrin, xüsusən də Braziliya və Hindistanın bu cür istəkləri dəstəkləməsi ehtimalı azdır. Onlar BRİCS-dən demokratikləşmə və mövcud nizamın islahatı maraqları naminə istifadə etmək istəyirlər. Hindistanın baş naziri Narendra Modinin sözlərinə görə, Yeni Dehli "qlobal inkişaf gündəliyi, islah edilmiş çoxtərəflilik, iqlim dəyişikliyi, iqtisadi əməkdaşlıq, davamlı təchizatla bağlı məsələlər üzrə mühüm dialoq və müzakirə platformasına çevrilmiş BRİCS çərçivəsində sıx əməkdaşlığı yüksək qiymətləndirir. Putinlə görüşdə Modi Hindistanın Ukraynada tezliklə sülhün bərqərar olmasının tərəfdarı olduğunu və münaqişənin həlli üçün hər cür yardım göstərməyə hazır olduğunu bildirib.

Göründüyü kimi, iştirakçı ölkələrin milli maraqları ilə bağlı fikir ayrılıqlarının aradan qaldırılması BRİCS-in gələcəyini müəyyən edəcək və dünya nizamı üçün mühüm nəticələr verəcək. Bu baxımdan Kazan BRİCS-in sonrakı fəaliyyəti üçün yeni meyarlar və yeni dünya nizamının qurulmasının ilkin məqsədlərini qorumaq üçün onun genişləndirilməsi şərtlərini hazırlamalı olacaq. Rusiya Beynəlxalq Məsələlər Şurasının elmi direktoru Andrey Kortunov bildirib ki, BRİCS-in Kazan sammitinə qədər bir neçə ay nazirlərin və digər yüksək vəzifəli şəxslərin geniş spektrli məsələlər üzrə çoxtərəfli görüşləri ilə dolu olub. "Müzakirələr beynəlxalq terrorizmlə mübarizədən tutmuş qlobal yaşıl keçidin idarə olunmasına, qlobal maliyyə sistemində islahatların aparılmasından ərzaq təhlükəsizliyinin təmin edilməsinə qədər uzanırdı. Bu hökumət məsləhətləşmələri BRİCS ölkələrinin parlamentləri, universitetləri və beyin mərkəzləri, vətəndaş cəmiyyəti institutları və müxtəlif tipli ictimai hərəkatların iştirakı ilə keçirilən tədbirlərin rəngarəng kaleydoskopu ilə tamamlandı", o qeyd edib.

Kortunovun sözlərinə görə, sammitin mərkəzi vəzifələrindən biri vurğunun tədricən kifayət qədər ümumi siyasi bəyannamələrdən inkişaf etməkdə olan ölkələrin fundamental maraqlarını əks etdirən konkret qərarlara yönəldilməsidir. "Uzun müddətdir ki, bu ölkələr qlobal və regional idarəçilikdə kifayət qədər təmsil olunmurlar. İndiyədək beynəlxalq sistem üçün oyun qaydalarını hazırlayan qlobal laboratoriyaların rolu demək olar ki, BVF və Dünya Bankı və ya G7 və İƏİT kimi Qərbin rəhbərlik etdiyi qurum və forumların kiçik bir qrupu tərəfindən inhisara alınıb. Bu monopoliya istər-istəməz beynəlxalq sistemdə ciddi gərginliyə gətirib çıxarıb, mövcud dünya nizamının ədalətliliyinə və davamlılığına şübhələr yaradırdı", - ekspert vurğulayıb.

BRİCS artıq dünya siyasətində və iqtisadiyyatında Qərb institutlarının monopoliyasına meydan oxuyur. Yeni İnkişaf Bankının rəhbəri Dilma Russefin Kazanda Putinlə görüşməsi onu Dünya Bankına alternativ hesab etmək olar. Üzv ölkələr arasında ticarət və maliyyə əməliyyatlarını asanlaşdırmaq və xarici birtərəfli sanksiyaların mənfi təsirlərini azaltmaq üçün bu iki struktur rəqəmsal ödəniş platforması ("BRICS Körpüsü") ilə tamamlanmalıdır. Kortunov hesab edir ki, BRICS inkişaf etdikcə,



üzv ölkələr və onların tərəfdaşları BMT, G20 və digər universal səviyyədə müvafiq təşəbbüslərin sonrakı təşviqi üçün çoxtərəfli əməkdaşlığın yeni modellərini sınaqdan keçirə biləcək yeni qlobal laboratoriyaya çevriləcək.

Çərşənbə və cümə axşamı sammitin iclasları məhdud və geniş formatda, dəvət olunanların və ölkələrin assosiasiyasına qoşulmaq istəyənlərin iştirakı ilə "autreach"/"BRICS plus" formatında keçiriləcək. Forumun yekunlarına yazılı və şifahi yekun vurulacaq. Liderlərin təkcə sammitin deyil, bütün Rusiya sədrliyinin nailiyyətlərini ümumiləşdirən Kazan Bəyannaməsini qəbul edəcəyi planlaşdırılır.

CNN, Bloomberg və digər Qərb KİV-ləri etiraf etməyə məcburdurlar ki, BRİCS ölkələrinin liderlərinin, eləcə də təşkilatın tərəfdaşlarının nümayəndə heyətlərinin Kazana səfəri Qərbin Rusiyanı beynəlxalq miqyasda təcrid etmək cəhdlərinin uğursuzluğunu nümayiş etdirir. BRİKS sammiti çox təmsilçi və hadisəli olacağını vəd edir. Xarici mətbuat öz narahatlığını gizlətmir: bu, sadəcə sammit deyil, Bretton-Vuds konfransının ekvivalentidir, bütün dünyada dollara ehtiyat valyuta kimi meydan oxumaq cəhdi, ABŞ-ın sanksiyalar siyasətini pozmaq istəyidir. Təbii ki, bu planların həyata keçirilməsinə hələ çox var, lakin yaxın iki gündə Kazanda baş verənlər istisnasız olaraq bütün planetdə izləniləcək. Qərbin kabusu - Vaşinqton, London və Brüsseldəki adi güc mərkəzlərinin əmri ilə deyil, öz milli maraqlarından çıxış edən azad və suveren dövlətlər dünyası getdikcə aydınlaşır.

**V.VƏLİYEV**

# Müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası

***Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimiz ”Ağıllı kənd” ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpa olunur. Əlbəttə ki, bu layihənin məqsədi kəndlərdə əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə rahat çıxışı təmin etmək, eləcə də xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər arasındakı fərqi aradan qaldırmaqdır.***



Müasir dünyada ”smart-city”, ”smart-village” yəni, ”ağıllı şəhər”, ”ağıllı kənd” konsepsiyası dünyada baş verən qlobal çağırışlara cavabdır. Bu gün yüksək texnologiyaların ölkəmizdə inkişafı ”Ağıllı şəhər” və ”Ağıllı kənd” konsepsiyasının hazırlanmasına zəmin yaradıb. Azərbaycanda ”Ağıllı şəhər” (Smart City) və ”Ağıllı kənd” (Smart Village) konsepsiyasının tətbiqinin sürətləndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev imzaladığı məlum Sərəncamına əsasən, Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas





prioritetlərindəndir. Müasir telekommunikasiya, sensor, ”Böyükhəcmli məlumatlar” (Big Data) və digər rəqəmsal və süni intellekt texnologiyalarının, həmçinin innovasiya və biliklərin istifadə edilməsi sosial-iqtisadi münasibətləri daha məhsuldar və səmərəli edir. Qeyd edilən texnologiyaların bir-birilə inteqrasiya olunmuş formada istifadəsi ilə rəqəmsal məlumatların formalaşdırılması, yığılması, saxlanılması, işlənilməsi və analitik təhlillər əsasında qərarvermə və idarəetmənin keyfiyyətinin yüksəldilməsi səmərəli, eləcə də keyfiyyətli xidmətlərin göstərilməsi üçün geniş imkanlar açır. Bu imkanlar şəhər və kəndlərdə göstərilən xidmətlərin növbəti inkişaf mərhələsində funksional, genişmiqyaslı ”Ağıllı şəhər” və ”Ağıllı kənd” xidmətlərinə keçid üçün zəmin yaradır.



### QAFQAZDA MÜASİR STANDARTLARA CAVAB VERƏN İLK KƏND

Qeyd edək ki, ”Ağıllı şəhər”lər məhsuldarlığı artırmaq, sakinlərin xidmət və həyat keyfiyyətini yaxşılaşdırmaq üçün son model texnologiyalardan istifadə edilən şəhərlərdir. ”Ağıllı şəhər” davamlı şəhər inkişafını təşviq etmək üçün ənənəvi infrastrukturun müasir texnologiya ilə peşəkarlıqla birləşməsidir. Buradakı əsas ideya resurslardan maksimum istifadə etməklə şəhərdə yaşayan və işləyən insanlar üçün gündəlik həyatı asanlaşdırmaq və daha da yaxşılaşdırmaqdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində işğaldan azad olunmuş Qarabağ və ətraf rayonlarımız yeni görkəm alır, ərazilərdə intensiv, genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Bu gün işğaldan azad edilmiş ərazilərdə də ”smart-city”, ”smart-village” yəni, ”ağıllı şəhər”, ”ağıllı kənd” konsepsiyası qurulur.

Yüksək texnologiyalara əsaslanan ”Ağıllı kənd” və ”Ağıllı şəhər” layihəsi ən qabaqcıl texnologiyaların tətbiqidir. İlk ”Ağıllı kənd” layihəsi Zəngilan rayonunun Ağalı kəndindən start götürmüş oldu. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin ”ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşüb.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə ”Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur. Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Layihə çərçivəsində ən önəmli komponentlərdən biri də ”ağıllı kənd” və ”ağıllı şəhər”lərin tikintisidir. Onlar yaşayış, istehsal, sosial xidmətlər, ”ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri kimi mühüm prinsiplər üzərində qurulacaq. Bu isə məskunlaşmanın özünəməxsus yeni modelini təşkil edəcək.

Artıq Azərbaycan yeni bir inkişaf mərhələsini yaşayır və görülən işlər, bu reallıqlar daha uğurlu sabahlara hesablanmışdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Hüseyn Cavidin fəlsəfi dünyası

Hər qulun cahanda bir pənahı var,
Hər əhli - halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir Allahı var,
Mənim Tanrım gözəllikdir, sevgidir.

Gözəlliyi, Tanrını özünə ümid, pənah yeri seçən, bütün gözəlliklərdən zövq alaraq yaradan fəlsəfi düşüncələr şairin ucaltdığı səsi həqiqət axtarışında olan bir mütəfəkkirin səsi idi. Dünyanı gözəlliyə qərq etmək, müharibələrə son qoymaq, iblisləri qəlblərdən çıxarmaq kimi bir amal uğurunda yazıb-yaradan şair zaman ilə üz-üzə dayanaraq həqiqi gözəllik axtarışında idi. Dünyanı, bəşəriyyəti xilas edəcək məfhumun dəyərini fəlsəfi dünyasında özünəməxsus bir tərzdə nəzmə çəkir. Filosof şair, böyük dramaturq Hüseyn Cavid dünyasından ədəbi mühitə hopan misralar onun böyük dünyanın hakim olduğu düşüncələrin parlaq nümunəsi kimi poeziyamıza yol açmışdır. Zamanın müasiri olan Hüseyn Cavid sonralar elə bütün nəsillərin müasirinə çevrildi, klassik sənətkar kimi Azərbaycan ədəbiyyatına, fəlsəfi fikir dünyamıza möhrünü vürdu.

Ürək dolubdu nədən, sanki qan piyaləsidir,
Tapıbdır əksini qəlbimdə bəlkə hali-vətən?
Zəmanə ötsə də möhnətli, qanlı qəlbimdən,
Əminəm, heç də silinməz bu ibtizali-vətən.

- deyən şairin əzəmətli səsi, dünyası vətən kimi böyük və müqəddəs bir məfhumun qəlbində əksini tapdığını ifadə edir.

## HƏMİŞƏ ÖZ İRADƏSİ İLƏ YAŞAMIŞ, ÖZ İRADƏSİNƏ, MİLLƏTİNƏ SADİQ OLMUŞDUR

Azərbaycan ədəbiyyatı tarixində romantizm ədəbi cərəyanın ən qüdrətli sənətkarlarından biri olan Hüseyn Cavid vətənin taleyi ilə qəlbinin həmahəngliyini nəzmə çəkdiyi misralarda şair vətənpərvər ruhunu ortaya qoyur. Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqımızın mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur". Bu fikirləri Ümummilli Lider Heydər Əliyev Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyi olan qüdrətli söz ustalarından biri olan Hüseyn Cavid haqqında bildirmişdir.

Fəlsəfi müdrikliyin və bədii kamilliyin ahəngdar vəhdətini dolğun təcəssüm etdirən Hüseyn Cavid yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə işıqlı səhifələr yazıb. O, bütün ədəbi fəaliyyəti boyu həqiqəti, insanpərvərliyi və gözəlliyi tərənnüm edib. Şərq poetik fikri zəminində yüksələn və dünya romantizm ənənələrindən uğurla bəhrələnən filosof - şair Azərbaycan poeziyasında fəlsəfi lirikanın dəyərli nümunələrini meydana gətirib. Azərbaycan xalqının XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan filosof - şair və istedadlı dramaturq Hüseyn Cavid ictimai fikir tarixində böyük rol oynamışdır. Hələ sağlığında öz orijinal sənət yolu ilə milli ədəbi-ictimai fikrin diqqətini yaradıcılığına cəlb etmiş Hüseyn Cavid irsi günahsız yerə repressiya qurbanı olduqdan sonra, bir müddət yasaq edilsə də, əsl vətənpərvər ziyalıların xatirindən bir an da çıxmamış, yeri gəldikcə, şifahi şəkildə olsa da, təbliğ edilmişdir. Bütün böyük klassiklər kimi, Hüseyn Cavid də zamanın sınağından alnıaçıq çıxaraq, layiq olduğu bəraəti almışdır.

## MİLLİ RUHUN DİRÇƏLİŞİ VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN TƏNTƏNƏSİ

Xalqımızın bir çox klassik sənətkarı kimi, Hüseyn Cavid irsinin və sənətkar şəxsiyyətinin əsl qiymətini sözün-sənətin böyük bilicisi və hamisi Azərbaycan xalqının böyük Oğlu, Ümummilli Lider Heydər Əliyev vermiş, onun istər cismən, istərsə də mənən vətəninə və xalqına qaytarılmasında müstəsna rol oynamışdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə Uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından, müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Tarix hər şeyi öz yerinə qoydu. Hüseyn Cavidin cənazəsi də Sibirdən öz vətəninə gətirildi, onun adı da yüksəldi".

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Hüseyn Cavidin cənazəsinin qalıqlarının Azərbaycana - şairin doğma yurdu Naxçıvana gətirilməsi Sovet məkanında yaşadığımız illərdə, həqiqətən də, böyük maraq doğurmuşdu. Milli mədəniyyətimizin hərtərəfli inkişafına, yüksəlişinə daim təkan verən Ulu Öndər Heydər Əliyev hələ Azərbaycan KP MK-nın Birinci Katibi vəzifəsində çalışarkən, 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul etmiş, bu qərardan sonra - 1982-ci il oktyabrın 3-də Naxçıvana səfəri zamanı Cavidin cənazəsinin qalıqlarının Uzaq Sibirdən tapılıb gətirilməsinə xeyir-dua vermişdir. 1982-ci il oktyabrın 12-də Naxçıvan Vilayət Partiya Komitəsi Hüseyn Cavidin məzarının tapılması, cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ilə bağlı tarixi bir qərar qəbul etmiş və bu qərarın icrası rusiyalı həmkarlarının köməyindən istifadə edərək şairin məşəqqətli ömür yolunu tədqiq edərək, Cavid haqqında Uzaq Sibirdə saxlanılan sənədlərin əldə olunmasına nail olan Naxçıvan Vilayət Partiya Komitəsinin katibi Həmid Cəfərova həvalə olunmuşdu. Cavidin cənazəsinin qalıqları onilliklərdən sonra uzaq və buzlu Sibirin əlçatmaz yerlərindən doğma yurdu Naxçıvana gətirildi.








## AZƏRBAYCANDA POETİK TEATRIN BANİSİ

Böyük dramaturqun doğum günündə onun keçdiyi ömür yolunu bir daha vərəqləyirik. Böyük dramaturq Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də Naxçıvanda ruhani ailəsində dünyaya göz açıb. İbtidai təhsilini Naxçıvanda molla məktəbində, orta təhsilini isə M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu məktəbində almışdır. 1899-1903-cü illərdə Cənubi Azərbaycanda olmuş, Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirmiş, Naxçıvanda, sonra isə Gəncə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir. Hüseyn Cavid klassik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən sənətkarlardandır. O, XX əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Hüseyn Cavid sənəti janr və forma cəhətdən zəngindir. O, lirik şeirlərin, lirik-epik, epik poemaların, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların müəllifidir. "Keçmiş günlər" adlı ilk şeir kitabı 1913-cü ildə çap olunmuşdur.

Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub və yazı ədası forma yeniliyi baxımından, Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Professor Cəfər Cəfərov yazırdı: "Şair və teatr özü-özlüyündə bir problemdir ki, səhnə sənətinə yeni keyfiyyət gətirir. Azərbaycanda poetik teatrın banisi Caviddir. ...Cavid yaradıcılığı teatrla üzvi surətdə bağlıdır və Cavidin şübhəsiz, öz teatrı vardır. Cavidi teatrsız, teatrı Cavidsiz düşünmək olmaz". Dramaturgiyasında dövrün ümumbəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır.

Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" (1914) əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır. Hüseyn Cavid bu dövrdə tədricən "haqq verilmir, alınır" ideyasına gəlib çıxmışdır. Yaradıcılığında mühüm yer tutan "İblis" (1918) mənzum faciəsində dövrün bütün mürtəce qüvvələri - "insan insana qurddur" fəlsəfəsinin tərəfdarları, "iyirminci əsrin mədəni vəhşiləri" olan dairələri İblis surətində ümumiləşdirilmiş və işğalçı müharibələrə lənət yağdırılmışdır.

## DİLİNİN İMLASINI DƏYİŞDİRMƏK BELƏ BÖYÜK CƏSARƏT



## TƏLƏB EDİRDİ

1926-cı ildə müalicə üçün Almaniyaya gedən və 7 ay Berlində yaşayan Hüseyn Cavid oradan ziyalıların mənəvi iztirablarını əks etdirən bir sıra siyasi-lirik və lirik-epik şeirlərlə qayıdır. Ötən əsrin 20-30-cu illərində Hüseyn Cavid bir sıra tarixi dramlar yazmışdır. "Peyğəmbər" (1922) və "Topal Teymur" (1925) əsərlərindən sonra yazdığı "Səyavuş" (1933), "Xəyyam" (1935) tarixi dramları Hüseyn Cavidin tarixə və tarixi şəxsiyyətlərə baxışında ciddi dönüş oldu.

Yazıçılardan bir belə yazırdı:"Həyat həqiqəti ilə arzu və xəyal arasındakı ziddiyyət onun dram əsərlərinin hərəkətverici qüvvəsidir. Buna görə də H.Cavid müstəsna hadisə, müstəsna hərəkətlər, müstəsna xarakter, müstəsna fabulalar yaradır. H.Cavid orijinal təbiətə malik bir şair idi. Onun bir misrasını silmək, başqa bir misra ilə əvəz etmək mümkün deyildi, hətta dilinin imlasını dəyişdirmək belə böyük cəsarət tələb edirdi".

Böyük sənətkarın yaradıcılıq irsinə və şəxsiyyətinə hər zaman diqqət olmuşdur. Ümummilli Lider Heydər Əliyevin "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" imzaladığı Sərəncamdan bir gün sonra 2002-ci il 24 oktyabrda, yeni Hüseyn Cavidin 120 illik yubileyi günündə şairin Ev Muzeyi açıldı. Bu gün Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, böyük sənətkarın əsərləri latın qrafikasında çap olunub. Hüseyn Cavidin 130 və 135 illik yubileylərinin keçirilməsi haqqında dövlət başçısı sərəncamlar imzalamışdır.

Görülən işlərin davamı olaraq, Cənab Prezident 24 sentyabr 2022-ci il tarixində Hüseyn Cavidin 140 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzaladı. Bu sənəd Cavid yaradıcılığına ayrılan daha bir diqqətdir.

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək, Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır. Böyük dramaturq Hüseyn Cavid "Şeyx Sənan" faciəsində yaratdığı dramatik münaqişə vasitəsilə insanın həqiqət axtarışında olaraq, onun hisslərinin aliliyini yüksəltmək səyləri ilə ucala biləcəyinin mümkünlüyünü isbat etmişdir. Hüseyn Cavid də, məhz belə ali dəyərlərin axtarışında olaraq, əbədiliyini qazanmışdır.

Əgər sual edələr - Cavidin xəyalı nədir?
Deyin həqiqəti, ancaq olub maali-vətən.

***Zümrüd BAYRAMOVA***

# Əhsən zirvəsi



***Bir əsrin zirvəsində dayanan, lakin bu zirvəyə doğru yolun düz yarısında həyatla bağları qopan Azərbaycanın böyük novator tarzəni, Azərbaycan SSR əməkdar artisti Əhsən Dadaşovun qısa ömrünün mənası ondadır ki, o, yaşadığı ömürdən sonrakı ömrünə də pay verib onu da yaşada, həm də ölümsüzləşdirə bilib. Bu, heç də hər kəsə nəsib olmayan səadətdir. Hələ neçə-neçə yüzilliklər ötəcək, bu yüzilliklərlə Əhsən Dadaşov şəxsiyyəti və sənətkarlığı ötən nəsillərə nümunə ola-ola daha yüksək zirvələrə qalxacaq. Çünki o, sağlığında ölümsüzlük zirvəsini fəth edib və adını oraya qızıl hərflərlə yazıb: Əhsən zirvəsi.***

Əhsən Dadaşovun bu qədər istedadlı, qeyri-adi tarzən olması əslində heç də təsadüfi deyil. "Ot kökü üstündə bitər",- deyib müdriklərimiz. Bu kəlam tək bir nəslin deyil, bir xalqın da zaman-zaman kökü üstündə var olmasını özündə ehtiva edir. İnsan övladı öz ata-baba kökü üzərində təşəkkül tapdığı kimi, belə sənətkarlar da özlərindən əvvəlki illərdə, əsrlərdə yaşayan böyük sənətkarların kökü üzərində rişə tapır. Axı bu xalqın Mirzə Sadıq (Sadıqcan), Mirzə Mansur Mansurov, Məşədi Zeynal Haqverdiyev, Məşədi Cəmil Əmirov, Məmmədxan Bakıxanov və digər mahir tarzənləri olub. Əhsən Dadaşov kimi də davamçıları olacaqdı. O Əhsən Dadaşov ki, dövrünün tamamilə fərqli xarakterdə olan şəxsiyyəti idi: əsl insan, əsl sənətkar. Onu başqalarından fərqləndirən də elə bu cəhətlər idi. Bir də alın yazısı fərqli idi. Bu alın yazısında repressiya qurbanı ata vardı, xərçəng qurbanı övlad vardı. Hələ xərçəngin yarımçıq qoyacağı daha bir dəyərli ömür də vardı. Bəlkə elə bunlara görə idi ki, onun barmaqları tarın simləri üzərində gəzərkən sanki bu alın yazısının acı duyğularına təmas edir və hər dəfə sarı simə asanlıqla toxunmaqla minlərlə tamaşaçı ürəyinə yol tapa bilirdi...

## Sarı simdən söz düşmüşkən...

Sarı sim... O, ürəkdən ürəyə yoldur. Bu sim sənətkarın öz ürəyindən dinləyici ürəyinə saldığı duyğu yoludur. Onlarla tar ifaçısı keçib Azərbaycan musiqisindən. Onlar arasında sadəcə ifaçı olaraq qalanlar da olub, tarzən adını alanlar da. Lakin tarzən olmaq da sarı simə toxunmaq demək deyil ki... Kim sarı simə toxuna bilir? İfasında birinci öz ürəyinə toxunan sənətkar. Öz ürəyinə toxunmadan bu duyğu yolunu çəkə bilməzsən. Odur ki, çox sənətkar tarı ürəyi üstünə sıxıb, lakin əlindəki mizrab sadəcə simlərə toxunub, sarı simi tapa bilməyib. Onu tapmaq üreyin işidir, onu görmək üçün gərək ürəyinin gözü olsun: görsün, sarı simə vursun, duyğu yaratsın ki, duyğu yolu da çəkilə bilsin...

Kim deyər, tək bircə kimsə ki, Əhsən Dadaşovun "Şur"u onun könlünü sızlatmayıb, ürəyindən su içib gözündən axan damla-damla yaşa çevrilməyib? Onun barmaqları bu təsniflə sarı simə toxunanda ürəklər riqqətə gəlib ötən xatirələri bir kino lenti kimi gözlər önündə canlandırmayıb? Kiminin nakam taleyini, kiminin unudulmayan sevgisini, kiminin ayrılıq acısını, kiminin erkən ata-ana, bala itkisini... Bax, "Şur" mahir tarzənin ifasında ürəklərə toxuna bilməsi ilə Əhsənin "Şur"una çevrilib. Çünki mizrab sarı simi axtarmadan tapıb.

Mahir sənətkarın lentə yazdırdığı və bu gün Azərbaycan radio verilişləri şirkətinin qızıl fondunu təşkil edən "Rast", "Orta Mahur", "Zabul-Segah", "Hümayun", "Vilayəti-Dilkeş", "Çahargah", "Bayatı-Şiraz" və sair muğamların hər biri sarı simsiz ifa olunmayıb. Onların mizrabı dünən necə idisə, bu gün də, sabah da Əhsən Dadaşovun ürəyindən dinləyici ürəyinə gedən yolun bələdçisi olaraq qalacaq.





Söhbətin bu yerində belə bir qənaət yaranır: əslində tar dilsiz, ağızsız bir musiqi alətidir. Hara qoyulsa, orada illərlə lal-dinməz dayanar. Xalqın milli dəyəri olaraq əvvəllər evlərdə divara vurulan xalçanın üzərindən asılan, əl dəyməsə, illərlə oradaca dayandığı kimi... Əhsən Dadaşovun uşaqkən ağac altından tapıb evə apardığı susqun tar kimi... Deməli, toxunmalısan ki, o, dillənsin. Dilləndirdi Əhsən müəllim tarı. Baxmayaraq ki, ata-anası onu həkim görmək istəyirdi, lakin tapıb ömrünə yoldaş etdiyi tarı elə dilləndirdi ki, hamı kimi, valideynləri də susdu, sadəcə dinlədi. Və bu ifada övladlarının məhz musiqinin həkimi olacağını görə bildilər. Bu hələ qarşıda öz təsdiqini tapacaqdı.

Əhsən Dadaşov tarı dilləndirməklə kifayətlənmədi, bu sahə üzrə təhsil aldı. Necə ki, tarını bir təsadüf nəticəsində tapmışdı, Azərbaycan Dövlət musiqi texnikumuna (indiki Bakı Musiqi Kolleci) qəbul elanı da qarşısına təsadüfən çıxdı və onu yeni bir yolun yolçusu etdi. Tələbə oldu və görkəmli musiqiçilər Səid Rüstəmov, Mənsur Mənsurov və Ənvər Mənsurovdan dərs aldı. Yaşı az olduğu üçün "Əhsən hələ vətəndaşlıq pasportu almayıb, amma çalmaq pasportunu çoxdan alıb " deyən Səid Rüstəmov bir qədər sonra onu rəhbərlik etdiyi xalq çalğı alətləri orkestrinə qəbul etdi. Və bir gün Əhsən Dadaşov tarı nə dilləndirdi, nə də ifa etdi, artıq oxutdu. Onun tarı sanki dil açıq müşayiət etdiyi onlarla xanəndə, müğənni ilə birlikdə oxudu: bənd-bənd, nəqərat-nəqərat... Bax, bu bacarıq, bu istedad böyük bəstəkar Üzeyir Hacıbəyovun mahir tarzənə verdiyi "Əhsən sənə, Əhsən" qiymətini ömrünün sonunadək aktual saxladı.

## Həyatın üç Ənvər töhfəsi

Bir ömürdə üç eyni adın olması sədaqətin, sadiqliyin, sevginin, dəyərin, bir də kədərin, nisgilin təzahürü olardı, deyilmi? Əhsən Dadaşovun 52 illik ömrünün Ənvərlərinin hər üçü bu ifadələrin inikası idi. Birinci Ənvər sevimli müəllimi idi. Görünür, mahir sənətkar müəllimindən gördüyü insanlığı, qayğıkeşliyi onun adını övladına verməklə öz daxili dünyasında mükafatlandırıb. Müəlliminin adını daha tez-tez çağırmağa ehtiyac duyub ki, o adı övladına verib. Beləliklə, İkinci Ənvər Əhsən Dadaşovun övladı olub.

Lakin həyat bizimlə razılaşmadan bəzən arzuolunmaz qonaqları evimizə dəvət edir və istəyimizin əksinə olaraq onları yuxarı başa keçirir. Ənvər müəllimin övladı, hələ qoxusuna doymadığı Ənvərini də onun əlindən alan xərçəng belə çağırılmamış, arzuedilməyən qonaq idi. Və bir gün bu xoşbəxt ailənin səadətini oğurlamaq üçün onların evinə göndərilmişdi.

Bir ata-ana üçün övlad itkisinin nə olduğunu təsəvvür etmək o qədər çətindir ki, buna sözün gücü çatmaz. Onu yaşamaq isə dəhşətdir. Elə buna görə də kiçik Ənvərin ölümündən sonra Əhsən müəllim ta əvvəlki Əhsən olmadı: bu itki onun ürəyinə zərbələr endirdi, gözlərindən axan yaş, burnundan çəkilməyən bala ətri oldu. Bir də övladının itkisi Əhsən Dadaşovun tarının bütün simlərini qoparıb darmadağın etdi. Qalan tək bir sim-sarı sim oldu. O, Ənvərin ölümündən sonra muğam, təsnif, xalq və bəstəkar mahnılarının hər birini yalnız sarı simlə ifa etdi: dinləyici ürəyini göynədə-göynədə, öz ürəyini isə tar-mar edə-edə...

Üçüncü Ənvər isə Əhsən müəllimin nakam övladının adını daşıyan növbəti övladı oldu. Bu, Əhsən Dadaşovun sevimli, dəyər verdiyi müəlliminin adını hökmən ailəsində yaşatmaq istəyi və yaxud körpəsinin qoxusunu üçüncü Ənvərdən almaq duyğusu idi, bilmirəm, lakin onun ailəsində yeni bir Ənvər doğulmuşdu. Lakin artıq Əhsən Dadaşova olan olmuşdu. Körpəsinin bədəninə sarmaşan xərçəng cənnət qapısından içəri keçə bilməmiş, balaca Ənvəri orada tərk edib Əhsən müəllimin daxilinə sarılmışdı. Və ondan xəbərsizcə içində kök salır, sıradan çıxardığı orqanların yerində hökmranlığı öz əlinə alırdı.

Əhsən müəllim isə gündən-günə gücünün zəiflədiyini, tarı belə sinəsi üzərinə qaldırmaqda çətinlik çəkdiyini hiss edirdi. Qarşıda yenə də çağırılmamış bir qonağı olacaqdı. Bu qonaq ömrünün hələ cəmi 52-ci anını yaşayan sevimli sənətkarın qapısını taybatay açıb içəriyə keçəcək, çıxanda özü ilə onu da aparacaqdı...

## Bir ömürlük "Xatirə"

1976-cı ilin gözəl bir yaz günü təəssüf ki, Əhsən Dadaşovun ömrünə vaxtsız gələn payız oldu. Bu payız onun bahar ömründən 52-ci yarpağı qoparıb xəzələ çevirdi və qarşısına alıb küləklərə təslim etdi. Cəmi 40 ildə solist, müşayiətçi, orkestr ifaçısı, ansambl rəhbəri, bəstəkar, pedaqoq-müəllim mərhələlərini layiqincə keçib ustad ifaçı adını alan, ifası ilk mizrabdan tanınan, nəinki özündən əvvəlki ifaçıları, öz ifasını belə əsla təkrar etməyən, tükənmək bilməyən fantaziyaya, orientasiyaya malik yenilikçi, minlərlə dinləyici qəlbini fəth edən və hələ sağlığında Əhsən zirvəsinə ucalan mahir sənətkarı itirdik. Bu itki ürəklərə onun öz mizrabı ilə xəncər zərbəsi endirdi. Ölümündən sonra isə hər dəfə ifası səslənəndə o mizrab artıq iki dəfə sarı simə toxunur: adət etdiyimiz həmişəki sarı simə və onun nakam ömrünün sarı siminə...

Əhsənsevərlərin tək təsəllisi isə mahir ifaçıdan qalan bir ömürlük xatirədir... Bu xatirələr toplusunda onun insani dəyərləri, Azərbaycan musiqi mədəniyyəti tarixinə verdiyi töhfələr, bu töhfələri bir şərqşünas kimi həm də şərq ölkələrində tərənnüm etməsi, muğam, təsnif və bəstəkar mahnılarını bənzərsiz ifası, bəstələdiyi 30-a yaxın melodiya və mahnı, muğama həsr etdiyi 20-yə yaxın rəng yer alır. İfa etdiyi zaman özündən xəbərsiz lentə yazılmış və sanki həyatı ilə eyni akkordları vuran "Kədərli günlərimdə" adlı türk mahnısı isə bu xatirələrin qəlb göynədən bir səhifəsidir.

Ondan bizə qalan bir ömürlük xatirəsində ən yaddaqalan an Əhsən Dadaşovun böyük vətənpərvərlik və cəsurluqla sovet imperiyasının ən qatı dövründə-1960-cı ildə Azərbaycanın qədim çalğı aləti olan uda yeni həyat verməsidir. Hansı ki, sovet quruluşu xalqın bir çox bayram, mərasimlərinin qeyd olunması kimi, udun da ifasını yasaq etmişdi. Böyük tarzənin bu cəsarətli addımı, gözəl ud ifaçılığı, hələ üstəlik 9 il sonra "Dəli Kür" filmində udla ürəklərə sirayət edən musiqini ifa etməsi dövrün məziyyətləri fonunda əsl qələbə və Azərbaycan musiqi tarixinə böyük töhfə idi.

Bir ömürlük xatirədə böyük sənətkarın Bakı televiziya studiyasının nəzdində 1960-cı ildə yaratdığı və ömrünün sonuna kimi bədii rəhbəri olduğu xalq çalğı alətləri ansamblının onlarla xanəndə, müğənni yetişdirməsi, Azərbaycan musiqisinin qızıl fondunu zənginləşdirməsi, ansamblın "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş "Görüş", "Ögey ana", "Möcüzələr adası", "Yenilməz batalyon", "Bizim Cəbiş müəllim", "Dəli Kür", "Ulduzlar sönmür" və "Qatır Məmməd" kimi filmlərə musiqi həyatı verməsi də var.

Musiqinin nə dili, nə sərhədi var. Əhsən Dadaşovun muğam və xalq mahnı ifaçılığı neçə-neçə sərhədlər aşıb, Azərbaycan dilində bir kəlmə anlamayan minlərlə insanın da ürəyinə toxuna bilib. Və ürəklərdə bir ömürlük xatirəyə çevrilib.

Əhsən Dadaşovun bir çox tarzənlərin sənət müəllimi olması və onların hər birinin əbədiyaşar ustadı əsl insan, səmimi, qayğıkeş müəllim, sənət fədaisi kimi xatırlanması da ondan bizə qalan bir ömürlük xatirədir. Bir ömürlük xatirə həm də hazırda Əhsən Dadaşovun adını daşıyan "Xatirə" xalq çalğı alətləri ansamblıdır. O ansambl ki, hər ritmi, hər akkordu, hər mizrabı Əhsən zirvəsində əks-səda verir: onu dünəndən bu günə, bu gündən sabahlara aparır.

***Mətanət Məmmədova***

**Qeyd: Azərbaycan Mətbuat Şurasının, "ƏHSƏN" Yaradıcılıq Təşəbbüsləri Mərkəzinin və Xəzər Media Mərkəzinin Əməkdar artist Əhsən Dadaşovun yaradıcılığı ilə bağlı birgə yazı müsabiqəsinə təqdim olunur.**

# Vegetativ həyat, yoxsa orqan bazarı?

***Orqan köçürülməsi bir insanın orqanının bir qismi və ya hamısının həyati funksiyasını itirmədiyi təqdirdə ikinci bir şəxsə köçürülməsi deməkdir. Yetkinlik yaşına çatmış istənilən şəxs öz orqanını başqasına bağışlaya bilər. Orqanları sağlam olan istənilən şəxs öz bərpaedilən orqanlarını bağışlayaraq bir çox insanın həyatını qurtara bilər.***

Dünyada hər il orta hesabla 120-121 min orqan transplantasiyası həyata keçirilir. 2022-ci ildə dünyada orqan köçürülməsi əməliyyatlarının sayı əvvəlki illərə nisbətən 30% artıb. Lakin iddia edilir ki, əslində, rəqəmlər etiraf ediləndən dəfələrlə böyükdür. Həmçinin, dünyada orqan transplantasiyası adı altında gizlədilən orqan ticarətinin qlobal dövriyyəsi inanılmaz rəqəmlərlə ölçülür.




## Tarixin ilk orqan köçürməsi: harada və necə?

Tibb tarixinə görə orqan nəqli ilk dəfə









miladdan öncə V əsrdə reallaşdırılıb. Orqan köçürülməsinin yeni tarixi isə XVII əsrdə yazılıb. Həmin əsrdə ilk dəri nəqli həyata keçirilib, XX əsrin başlanğıcında isə ilk dəfə heyvanlar üzərində orqan nəqli həyata keçirilib. 1912-ci ildə fransız həkim Aleksis Karrel toxuma nəqli sahəsində uğurlarına görə Nobel Tibb Mükafatını alıb.

İlk böyrək transplantasiyası isə 1933-cü ildə macar həkim Voronoy tərəfindən həyata keçirilib, amma bədən böyrəyi qəbul etmədiyi üçün xəstə ölüb. 1942-ci ildə ingilis zooloq Piter Brayn sübut etdi ki, bunun səbəbi immunitet sistemidir. 1944-cü ildə isə holland həkim Villem Kolf tərəfindən "dializator" adı verilən süni böyrək yaradıldı, bu böyrəyin sayəsində böyrək xəstəsi olan insanlar yaşaya bilirdi.

Tibb tarixində ən uğurlu orqan transplantasiyasını 1954-cü ildə Çikaqoda Cozef Murray həyata keçirdi. Orqanını bağışlayan xəstənin əkizi idi, buna görə də bədən yeni böyrəyinə tez alışdı. Təxmini hesablamalara görə, bu günə qədər bütün dünyada yarım milyondan artıq böyrək köçürülüb.

## Azərbaycanda orqan transplantasiyasının yarım əsr tarixi var

Azərbaycanda ilk orqan transplantasiyası əməliyyatı akademik Mirməmməd Cavadzadənin adı ilə bağlıdır. O Cənubi Qafqazda və Yaxın Şərqdə ilk dəfə olaraq hələ 52 il əvvəl, 1971-ci il martın 4-də pasiyentinə böyrək köçürüb. Elə bu nailiyyətinə görə də 1974-cü ildə SSRİ dövlət mükafatına layiq görülən akademik 1983-cü ilə kimi Azərbaycanda 30-a yaxın böyrəkköçürmə əməliyyatı həyata keçirib.

Mövcud qanunvericiliyə əsasən, ölkəmizdə yalnız M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanası, Mərkəzi Gömrük Hospitalı, Akademik Zərifə Əliyeva adına Elmi-tədqiqat Oftalmologiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanası, Mərkəzi Klinika, Respublika Müalicəvi Dioqnostika Mərkəzi, Respublika Talassemiya Mərkəzi, Azərbaycan Tibb Universitetin Tədris-Cərrahiyyə Klinikası transplantasiya əməliyyatı keçirməyə ixtiyar qazanıb.

## İnsandan insana orqan payı

Bir insandan digərinə köçürüləcək orqanlar ürək, ağ ciyər, böyrəklər, qara ciyər, mədəaltı vəzi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kornea təbəqəsi ola bilər.

Aparılan araşdırmalar nəticəsində bildirilir ki, insan tamamilə öldükdən sonra köçürülməyə yararlı tək orqanı gözün buynuz qişasıdır. Beyin ölümü reallaşan, əslində, hələ həyatda olan insandan orqan köçürülməsi məsələsi isə olduqca mübahisəlidir.

"Beyin ölümü" adlandırılan diaqnozun özü də şübhəli məqamlar ehtiva edir. Həkimlər, beyin ölümü diaqnozu qoyduqları xəstə hələ həyatda ikən orqanları götürə, dolayısı ilə ölümünə səbəb ola bilərlər. Bu diaqnozun mövcudluğundan qlobal orqan mafiyasının istifadə etməsi və dünyada orqan ticarətinin dövriyyəsinin fantastik rəqəmlərlə ölçülməsi barədə iddialar var.

Bir çox ölkədə orqan bağışlanması faizini artırmaq üçün (dolayısı ilə orqan ticarətini çiçəkləndirmək üçün) bağışlayanlara və ailələrinə bəzi imtiyazlar verilir. Məsələn, Amerikada orqan bağışlanmasını artırmaq məqsədilə xüsusi vergi endirimləri tətbiq olunur.

## Qanunlarımız nə deyir?

2020-ci ildə Milli Məclisdə, III oxunuşda qəbul edilən "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanun layihəsində canlı donordan orqanın götürülməsi qaydası və şərtlərinə görə digər tibbi üsullarla və meyit orqanları vasitəsi ilə insan həyatının xilas edilməsi və ya sağlamlığının bərpası mümkün olmadıqda resipiyentə canlı donordan orqanların transplantasiyasına yol verilir.

Canlı donordan resipiyentə transplantasiyanın həyata keçirilməsinin mümkünlüyü, tərkibində ixtisaslı həkimlərin iştirak etdiyi həkim komissiyasının qərarı ilə, tibbi müayinə nəticələri, o cümlədən tibbi göstəriş olarsa, gen və toxuma tipləşdirməsi nəticələri əsasında müəyyən edilir.

Canlı donordan orqanların götürülməsi zamanı donorun resipiyentin qohumu olduğu hallarda, qohumluq əlaqəsi müvafiq sənədlərlə təsdiq olunmalıdır. Canlı donor nəzərdə tutulan cərrahiyyə əməliyyatı ilə bağlı sağlamlığı üçün baş verə biləcək ağırlaşmaların mahiyyəti ilə tanış olmalıdır. Canlı donor orqanların götürülməsinə kənar təsirlər olmadan, könüllü şəkildə qərar verdiyinə dair yazılı şəkildə məlumatlandırılmış razılığını bildirməlidir. Hər hansı şəxsi orqanların götürülməsinə məcbur edənlər qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

Layihədə həmçinin transplantasiya obyekti olan orqan və toxumaların siyahısı müəyyənləşib. Belə ki, canlı donordan transplantasiya məqsədilə yalnız böyrəyin biri, ağciyərin bir payı, qaraciyərin bir hissəsi, mədəaltı vəzin bir hissəsi, nazik bağırsağın bir hissəsi, dərinin bir hissəsi, sümük iliyi, kök hüceyrələr götürülə bilər.

Meyit donordan transplantasiya məqsədilə ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi, mədə, bağırsaqlar, uşaqlıq, yuxarı və aşağı ətraflar, sümüklər, dəri-fassiya-əzələ kompleksi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası, kök hüceyrələr və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və toxumalar götürülə bilər.

## Beyin ölümü, yoxsa vegetativ həyat?

Lakin donorun orqanlarının götürülməsi üçün həmin şəxs tibbi cəhətdən ölmüş olmalıdır. Tibb elmi beyin ölümü reallaşanda xəstəni ölmüş hesab edir. Lakin şüuru qapalı şəkildə həyata davam etməyin bir yolu da vegetativ həyatdır. Belə xəstələr nəfəs alırlar, ancaq şüurları sağlam insanların şüurları kimi işləmir. Vegetativ həyat tibbi ölüm deyil. İnsanın şüuru açıq və ya tənəffüs aparatına bağlı olmasa belə, həmin şəxs vegetativ vəziyyətdədirsə, o hələ yaşayır, həmin adamın orqanları çıxarılmır.

Beyin ölümü qərarı kardioloqlar, nevroloqlar, neyrocərrahlar və anestezioloqlardan ibarət bir həkim qrupu tərəfindən verilir. Hər bir mütəxəssis fərdi olaraq xəstəni qiymətləndirir. Beyin ölümü diqanozu qoyularsa bu şəxs donor namizədi ola bilər. Lakin dünyada beyin ölümü gerçəkləşən xəstələrin yalnız gözün buynuz qişası donorluğu üçün yararlı olduğu barədə ciddi tədqiqatlar aparılır. Bu da önümüzə bir sual işarəsi qoyur: "Bəlkə vegetativ həyatda olan pasiyentlərə "beyin ölümü reallaşıb" diqnozu qoyub orqanlarını alırlar?".

Azərbaycan Respublikasında ksenotransplantasiya (elmi-tədqiqat işləri istisna olmaqla) da qadağandır. Ksenotransplantasiya insan orqanlarının heyvana, yaxud heyvan orqanlarının insana köçürülməsidir.

*Lalə Mehralı*

ARAŞDIRMA

# Bakı ABŞ-ın yarımçıq sülh sazişi ilə bağlı təzyiqlərini qəbul etməyəcək

"Baydenin manipulyasiyalarına cavab olaraq Bakının güzəştə getməyəcəyinə və bu cür yarımçıq sülh sazişi tələblərindən imtina edəcəyinə şübhə yoxdur"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*










***Politoloq, Rusiya Beynəlxalq Məsələlər Şurasının üzvü Aleksey Naumov "Moskva-Baku" portalına müsahibəsində Bakıdan İrəvan üçün sülh şərtləri, "3+3" formatında nizamlanma prosesində iştirak və Vaşinqton amili barədə danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Aleksey, sizcə, hazırda Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması variantları varmı?***

- Məncə, bu məsələdə formal tərəfə bağlanmağa ehtiyac yoxdur. Azərbaycan bu məsələdə öz qaydalarını diktə edir və bundan kənara çıxmayacaq, çünki o, obyektiv cəhətdən daha güclüdür. Azərbaycan Respublikası Ermənistan Respublikasında hakimiyyətdə kimin olmasından asılı olmayaraq, gələcəkdə İrəvanın qisas almaq imkanlarını istisna etmək istəyir. Müvafiq olaraq, Bakı tamamilə haqlı olaraq Ermənistanı istənilən revanş üçün hüquqi əsaslardan məhrum etmək istəyir. Qüvvələr balansı istənilən vaxt şəraitə uyğun olaraq dəyişdirilə bilər. Və nə qədər ki, Azərbaycan diplomatik, hərbi və iqtisadi üstünlüklərini qoruyub saxlayacaq, Konstitusiyanın dəyişdirilməsi və Azərbaycan Respublikasına qarşı ərazi iddialarının ondan çıxarılması ilə əlaqədar Ermənistana təzyiqlərini artırmağa davam edəcək. Bakı isə İrəvanla sülh müqaviləsinin qısaldılmış variantının heç bir imzalanmasına razı olmayacaq.

Düşünmürəm ki, yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında hansısa ilkin, qısaldılmış sazişin imzalanması mümkün olsun.

***- Moskva, Ankara və Tehranın təklif etdiyi "3+3" platforması çərçivəsində Bakı ilə İrəvan arasında danışıqların yekunlaşmasının mümkünlüyü barədə nə deyə bilərsiniz?***

- Ermənistan əslində "3+3" formatından istifadə etmək istəmir, çünki bu format əslində İrəvana üstünlük vermir. Rusiya da, Türkiyə də Azərbaycana üstünlük verir. Rusiya-Azərbaycan münasibətləri bu gün postsovet dövründə ikitərəfli münasibətlərin ən yaxşı nöqtəsindədir.

Təbii ki, Azərbaycanla Ermənistan arasında danışıqlarda "3+3" formatından istifadə İrəvanı əlverişsiz vəziyyətə salır, çünki onun bu formatda müttəfiqi qalmayıb. Azərbaycanla birbaşa danışıqların mümkünlüyü Ermənistana danışıqlar prosesini yubatmağa imkan verir, çünki danışıqlarda üçüncü tərəf yoxdur və Bakıdan başqa heç kim İrəvanın danışıqları həqiqətən gecikdirdiyini və Bakıya qəbuledilməz təkliflər irəli sürdüyünü qeyd edə bilməz. Və belə olan halda İrəvanın Azərbaycanı nədəsə ittiham etmək imkanı var. İrəvan bundan məmnundur: o, bilərəkdən ləngimə xəttini seçdi, çünki məhz bu gecikmə Ermənistana Qərblə əməkdaşlığı daha da artırmağa, ondan dəstək almağa və silah almağa imkan verir.

Bundan əlavə, yarandığı gündən "3+3" formatı təəssüf ki, geosiyasi səbəblərdən problemlərin həlli üçün tam hüquqlu alətə çevrilə bilməyib. Bu hələ yeni yaranan platformadır. Gürcüstan, gördüyümüz kimi, hələ də ona qoşulmayıb. Hesab edirəm ki, bu, hakim "Gürcü arzusu" partiyası oktyabrın 26-da keçiriləcək parlament seçkilərində qalib gələrsə, baş verə bilər.

İran da çətin geosiyasi vəziyyətdədir. Hazırda onun əsas problemləri Amerika Birləşmiş Ştatları ilə bağlıdır.

Amma mən hesab edirəm ki, dövlətlərin suverenliyinin prioritetliyi, qarşılıqlı maraqların tanınması və yerli münaqişələrin üçüncü qüvvələrin iştirakı olmadan yerli qüvvələr tərəfindən həllinə əsaslanan yeni dünya nizamı böyüdükcə bu format güclənəcək.

***- Co Bayden bu il və COP29 ilə əlaqədar olaraq, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin sürətləndirilmiş şəkildə imzalanmasına dair Amerikanın təkliflərinin yer aldığı məktubu Azərbaycan prezidentinə təqdim edib. ABŞ-ın marağı nədir?***

- Co Bayden Amerika diplomatiyasına xas bir cəhd edir: o, Azərbaycanın real hərəkətlərini hipotetik reputasiya qazancları ilə əlaqələndirir. Məşhur Sovet kəlamını ifadə etsək: yoldaş Bayden "sağ ol" desin.

İndi Azərbaycan Amerikanın təzyiqinə və Amerika təsirinə müqavimət göstərməyə hazır olduğunu nümayiş etdirib və Azərbaycan Respublikasının Prezidenti ABŞ-a qarşı kifayət qədər sərt ifadələr işlətdikdə, Baydenin manipulyasiyalarına cavab olaraq Bakının güzəştə getməyəcəyinə və bu cür yarımçıq sülh sazişi tələblərindən imtina edəcəyinə şübhə yoxdur. ABŞ-ın manipulyasiyası nəticə verməyəcək.

Bu, ABŞ-ın Azərbaycana qarşı növbəti nümayişidir ki, ondan Amerika hegemonluğunun aləti kimi istifadə etmək istəyirlər. Sxemin işləmə üsulu ondan ibarətdir ki, onlar kimisə tərifləyirlər və həmin ölkə əslində onlar üçün nəsə edir. Amma bu, Azərbaycana aid deyil.

Bakı ABŞ-ın bu növbəti addımına diplomatik, eyni zamanda sərt reaksiya verəcək. Çünki bu, yalnız ABŞ-ın maraqlarına uyğundur - Amerika Birləşmiş Ştatlarının təkbaşına hegemonluğu dövründən köhnə dünya nizamına qayıdışa qarşıdır. Yəni bu, bu torpağın yerli xalqı olaraq, guya sizi təriflə sevindirməli olan ağ müstəmləkəçi adından sizə ünvanlanmış zərərli təzyiqdir. Qeyri-bərabər münasibətlər, yəni qul və ağa münasibətləri - Hegelin məşhur mənasına istinadla. Azərbaycan bundan razıdırmı? Gördüyümüz kimi, yox.

Bəli ABŞ-ın bu cür addımları "3+3" formatını lazımi şəkildə aktivləşdirməyin vaxtının yetişdiyinin daha bir sübutudur, əks halda "ağ ağalar" regiona gəlməkdə davam edəcək. Əvvəllər aborigenlərə zinət əşyaları və silahlarla gəlirdilər. İndi "təriflə". Bu köhnə dünyadan yeni dünyaya salamdır. Amma dünya dəyişir.

***Tərcümə - Elçin Bayramlı***

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Təhsilə və işə fasilə verilməsinə ehtiyac yoxdur”



## EKSPERT RƏYLƏRİ

Məlum olduğu kimi, oktyabrın 21-də səhər saatlarından başlayaraq Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağıb. Yarımadanın bəzi yerlərində yağıntılar intensiv olub. Oktyabrın 21-i gündüzdən 22-si səhərədək düşən yağıntının miqdarı Binədə 86 millimetr (aylıq normanın 306 faizi), Maştağada 60 millimetr (aylıq normanın 150 faizi), Pirallahıda 47 millimetr (aylıq normanın 197 faizi), Çilov adasında 37 millimetr (aylıq normanın 159 faizi), Bakıda 32 millimetr (aylıq normanın 114 faizi), Sumqayıtda isə 14 millimetr (aylıq normanın 52 faizini) təşkil edib. Bu günlərdə müşahidə olunan yağıntının miqdarı aylıq normanın 3,5 misli qədər olub ki, bu da Bakıda və Abşeron yarımadasında indiyədək misli görünməyən intensivlik deməkdir.

Xatırladaq ki, bundan əvvəl intensivliyinə görə ən güclü yağışlar 2019-cu il sentyabrın 3-də qeydə alınıb. Belə ki, həmin gün Sumqayıtda 27 millimetr (aylıq normanın 100 faizi), Bakıda 18 millimetr (aylıq normanın 64 faizi), Maştağada 12 millimetr (aylıq normanın 30 faizi) yağıntı düşüb.

Bəs, belə güclü yağışlar səbəbindən təhsilə və işə fasilə verilməlidir? SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib. Sosioloq Əhməd Qəşəmoğlu: ”Məlumdur ki, yağıntılar bir çox yerlərdə fəsad verdi. Düşünürən ki, qısa zaman üçün təhsilə fasilə verib yenidən onu bərpa etmək çətinlik yaradar. Təbii ki, yağıntılar hansı yerlərdə ki fövqəladə vəziyyət yaradıbsa, orada təhsilə fasilə verilə bilər. Amma ümumilikdə bpyük miqyasda fasiləyə indi vaxtda ehtiyac yoxdur”.

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: ”Mən düşünmürəm ki, yağıntılarla bağlı təhsilə və işə fasilə verilməsinə ehtiyac var. Zatən yağıntılar qısamüddətlidir və artıq bitib. Bu gün belə zərurətin olması lazım deyil”.

***Ayşən Vəli***

# Restoran və kafelərin səs-küyünü necə kəsmək olar?

QURUMDAN AÇIQLAMA






Açıq tipli kafe, restoranların səhərədək səsucaldanlarla ətrafa yaydığı musiqi səs-küyü ətrafdakıları bezdirib. Bakı gecələrinin əsas problemlərindən biri də səs-küydür. Kafelərdən, restoranlardan, şadlıq saraylarında, istirahət mərkəzlərindən ətrafa yayılan səs-küy şəhər sakinlərinin yuxusuna haram qatır. Binaların birinci mərtəbəsində olan kafelər və restoranlardan gələn səslər sakinləri narahat edir. Musiqiyə qarışan qışqırıq, bağırtı belə məclislərin keçirildiyi yerlərin qonşuluğunda yaşayanların həyatlarını xoş etmir. Pəncərəni açmaq mümkün deyil. Açanda da səs-küydən oturmaq mümkün deyil. Restoran və kafelərin səs-küyünü necə kəsmək olar? SİA məsələ ilə bağlı DİN-ə müraciət edib. DİN-in Mətbuat Xidmətinin əməkdaşı polis leytenantı Lumu İsrəfilli bildirib ki, polis əməkdaşları tərəfindən məişət səs-küyünə qarşı müvafiq mübarizə tədbirləri həyata keçirilir: ”Qeyd edim ki, məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulması İnzibati Xətalar Məcəlləsinin 521-ci maddəsi ilə tənzimlənir. Belə ki, mənzillərdə, yaşayış evlərinin girişlərində və həyətlərində, küçələrdə, istirahət yerlərində, avtomobillərdə və digər ictimai yerlərdə gecə saat 12-dən səhər 7-yədək səs-küy salmağa, ucadan mahnı oxumağa, musiqi alətlərini ucadan ifa etməyə, televizorları, radioqəbulediciləri, maqnitofonları və digər aparatları gur səslə oxutmağa, məişət səs-küyünə qarşı mübarizə tələblərini başqa üsulla pozmağa görə fiziki şəxslərə 150 manatdan-200 manatadək məbləğdə, vəzifəli şəxslərə 2000 manatdan 2500 manatadək məbləğdə inzibati tənbeh tədbiri tətbiq edilə bilər”.

***Söylü Ağazadə***

# Hansı hallarda süd bacı-qardaşlığı yaranır?



“İslam qanunlarına əsasən insanlar arasında məhrəmlik üç formada yaranır”. Bu sözləri SİA-ya açıqlamasında Təzə Pir məscidinin axundu Mircəfər Əyyubov deyib. O bildirib ki, bunlardan biri genetik məhrəmlikdir, yəni bir qız atasına qanı eyni olduğu üçün məhrəmdir, bacı qardaşa eyni qandan olduqları üçün məhrəmdir. Ana oğula eyni qandan olduğu üçün məhrəmdir. İkinci formada məhrəmlik qohumluq, nikah əlaqəsi ilə yaranır. Oğlan aldığı qıza kəbin kəsdirdiyi üçün məhrəm olur. Qaynana kürəkənə qızının əri olduğu üçün məhrəm olur, gəlin qaynataya ərinin atasıdır deyə, məhrəm olur.

Üçüncü növ məhrəmlik isə süd vasitəsilə olur. Bir oğlan uşağının anası başqa bir xanımın qızına süd verirsə, həmin oğlanla həmin qız süd bacı-qardaşı sayılır. Amma bu onların digər bacı-qardaşlarına aid deyil, yalnız eyni südü içmiş bacı-qardaş sayılır. Onun da şərtləri var. Şərtlərindən biri budur ki, uşaq 24 saat o ananın südü ilə qidalanmış olsun, ya da yalnız bu ananın südü ilə qidalanmasa da, 15 gün o ananın südünü içmiş olsun. Bu şəkildə süd bacı-qardaşlığı yaranır”.

Onun sözlərinə görə, bunlardan başqa İslama görə məhrəmlik qanunu yoxdur: ”Bir nəfər başqa birinə böyrəyini, ürəyini bağışlasa, ona məhrəm olmur. Aralarında heç bir yaxınlıq yaranmır. Yaxud da, kimsə bir uşağı körpəliyindən saxlayır, uşaq ona məhrəm olmur. İslam tarixində bu məsələni anlatmaq üçün Rəsulullaha Allah çox böyük tapşırıq verdi. Belə ki, Peyğəmbər Zeyd adlı bir oğlanı oğulluğa götürmüşdü. Zeyd böyüdü, Zeynəb adlı bir xanımla evləndi. Zeynəblə əlaqələri alınmadı və onlar boşandılar. Allah-təala Peyğəmbərə buyurdu ki, o Zeynəbi evinə gətirməsən belə, onunla nikaha gir ki, insanlar başa düşsünlər, bir nəfər bir uşağı götürüb illərlə saxlasa belə məhrəm olmur: ”Zeyd sənin oğlun, qardaşın, kürəkənin deyil. Sadəcə saxlamısan. Zeydin boşadığı xanımı almaq sənə halaldır”. İslam dininə əsasən qaynata öz oğlunun arvadını oğul arvadını boşasa belə, ala bilməz. Qaynana-kürəkən, qaynata-gəlin arasında əbədi məhrəmlik yaranır. Məhrəmliyi Allah təyin edir. O cümlədən, orqan bağışlamaq, qanı qana qatmaqla heç bir dini məsuliyyət, mənəvi bağ yaranmır. Sadəcə dostluq yarana bilər”.

***Söylü Ağazadə***

ELAN

“Sünbül” ASC-nin

*Səhmdarlarının nəzərinə!*

26 noyabr 2024-cü il saat 11:00 - da səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi: 2023-cü ilin illik hesabatlarının təsdiqi

***Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, 7- ci MK-rn Abay Kunanbayev 112, ”Kafe”***

*tel: 050 646 23 80*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**